HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 08 (850) ■ 1 mart 2017 | www.vergiler.az | Qiyməti: 60 qəp.

## Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilib

XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 25-ci ildönümü ilə əlaqədar fevralın 26-da Bakıda ümumxalq yürüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər.



Paytaxtın Azadlıq meydanından başlayan və 40 mindən çox insanın iştirak etdiyi ümumxalq yürüşünün məqsədi Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır.

Ön sırasında Prezident İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın olduqları yürüş iştirakçıları Xocalı soyqırımı qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkətə başlayıblar. Ümumxalq yürüşünün iştirakçıları əllərində qanlı qırğının günahsız qurbanlarının - xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretləri, 25 il bundan əvvəl törədilmiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkillər, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, bu soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək barədə çağırışlar və soyqırımı qurbanlarının adları, soyadlarının əks olunduğu Azərbaycan, rus, ingilis, fransız dillərində plakatlar və transparantlar tutmuşdular. Marşrut boyunca yolların kənarlarındakı monitorlarda, binaların fasadlarında və balkonlarında «Dünya Xocalı soyqırımını tanımalıdır!», «Xocalıya ədalət!», «Xocalını unutmayın!», «Rədd olsun erməni faşizmi!», «Xocalı - XX əsrin soyqırımı», «Cinayətkarlar cəzasız qalmayacaqlar!», «Xocalı soyqırımı - 25 il» və s. çağırışlar və şüarlar nümayiş etdirilib. İnsanların hüznlü çöhrələrinə baxanda görünürdü ki, ötən 25 il Xocalının dinc sakinlərinə qanlı divan tutulmasının dəhşətlərini yaddaşlardan silə bilməyib.

Xocalı soyqırımı qurbanlarının abidəsinin ətrafında fəxri qarovul dəstəsi və tər çiçəklər düzülmüşdü. Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoyub, faciə qurbanlarının xatirəsini ehtiramla yad edib. Birinci vitse-prezident xanım Mehriban Əliyeva, Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva, Heydər Əliyev abidənin önünə tər güllər qoyublar. Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkətlərin rəhbərləri, diplomatik korpusun nümayəndələri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri də abidənin önünə güllər düzüblər.

Bu yürüş həm də dünya ictimaiyyətinə bir mesajdır ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək, ərazi bütövlüyünü bərpa edəcək. Hər kəsə aydın olmalıdır ki, Xocalı soyqırımını törədənlərin cəzasız qalması, münaqişənin nizama salınmaması nəinki Cənubi Qafqaz regionunda, həm də bütün dünyada sülh və sabitlik üçün təhlükə törədir. Bunu ötən il aprel ayının əvvəllərində cəbhə xəttində baş vermiş hadisələr bir daha sübut edir. Ermənistan silahlı qüvvələri növbəti təxribatlara əl ataraq, cəbhə xətti boyunca yerləşən yaşayış məntəqələrini güclü atəşə tutdular. Azərbaycan Silahlı Qüvvələri dinc sakinlərin təhlükəsizliyini təmin etmək üçün cavab tədbirləri görməyə məcbur oldu. Genişmiqyaslı hərbi əməliyyatlar nəticəsində Azərbaycan torpaqlarının bir hissəsini işğalçılardan təmizlədi. Xalqımızın, dövlətimizin, ordumuzun mübarizə əzminin yenilməzliyini təsdiq edən bu qələbə sübut etdi ki, torpaqlarımız yağı düşməndən azad ediləcək, şəhidlərimizin qanı yerdə qalmayacaq.

Fevralın 26-da bütün gün ərzində Xocalı soyqırımı qurbanlarının abidəsi önünə insan axını davam edib. On minlərlə insan soyqırımı abidəsini ziyarət edib. Abidənin önünə tər çiçəklər qoyulub, şəhidlərin ruhuna dualar oxunub.

## Avropa Azərbaycanlıları Konqresinin V qurultayının iştirakçılarına

**Hörmətli qurultay nümayəndələri!**
**Əziz dostlar!**

Sizi Avropa Azərbaycanlıları Konqresinin növbəti ali toplantısının işə başlaması münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Təqdirəlayiq haldır ki, 2004-cü ildə təsis olunmuş Konqres Avropa ölkələrində məskunlaşan soydaşlarımızın təşkilatlanması və diaspor qurumlarının fəaliyyətinin əlaqələndirilməsi istiqamətində ardıcıl iş aparmış, qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsində uğurlar qazanmışdır.

Müstəqillik illərində Azərbaycanın Avropa dövlətləri ilə siyasi, iqtisadi və humanitar sahələrdə sıx əməkdaşlıq münasibətləri formalaşmışdır. Ölkəmizin əlverişli coğrafi mövqeyi, təbii ehtiyatları, xalqımızın zəngin mədəniyyəti qitə dövlətləri ilə hərtərəfli əlaqələrin inkişafında əhəmiyyətli yer tutur. «XXI əsrin müqaviləsi» adlandırılan «Cənub Qaz Dəhlizi» və Bakı-Tbilisi-Qars dəmir yolu kimi nəhəng transmilli layihələrin təşəbbüskarı və əsas icraçılarından biri olan Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, Asiya ilə Avropanı birləşdirən Şərq-Qərb nəqliyyat infrastrukturunun yaradılmasında müstəsna rol oynayır. Ölkəmiz həm də mədəniyyətlərarası dialoqun, multikulturalizm və tolerantlığın təşviqinə, qlobal humanitar problemlərin həllinə sanballı töhfələr verir, müasir Avropa mədəniyyətinə və dəyərlər sisteminə yeni çalarlar qatır.

Hazırda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında ədalətli həllinə nail olmaq qarşımızda duran ən mühüm ümummilli vəzifədir. Bu günlərdə biz erməni işğalçılarının törətdiyi Xocalı soyqırımının iyirmi beşinci ildönümü ilə bağlı faciə qurbanlarının xatirəsini bir daha dərin hörmətlə yad edirik. Vaxtilə bu qanlı aksiyanı həyata keçirənlər Azərbaycan xalqını sarsıtmaq və mübarizədən çəkindirmək məqsədi güdürdülər. Lakin əminliklə demək olar ki, düşmən öz istəyinə nail ola bilmədi. Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra xalqımız öz qəddini düzəltdi, daxili potensialına güvənərək güclü və müasir dövlət qurdu. Ötən ilin aprelində Ermənistanın cəbhə xəttindəki təxribatlarına ordumuzun layiqli cavab verməsi və torpaqlarımızın bir hissəsinin azad edilməsi əyani şəkildə göstərdi ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməyə tam qadirdir.

Lakin müasir dövrdə qələbələr tək hərb yolu ilə deyil, həm də siyasi-intellektual vasitələrlə təmin edilir. Bu sahədə malik olduğumuz vacib resurslardan biri də xarici ölkələrdə yaşayan həmvətənlərimiz və onların yaratdıqları təşkilatlardır. Ona görə də Azərbaycan diasporu, o cümlədən Avropadakı icmalar öz fəaliyyətini daha da genişləndirməli, işlərin koordinasiyasını və dost ölkələrin analoji təşkilatları ilə əlaqələrini gücləndirməlidirlər. Diaspor nümayəndələri ölkəmizlə bağlı məlumatların, Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətlərin Avropa ictimaiyyətinə daha çevik və dolğun çatdırılması, mədəniyyətimizin təbliği və başqa istiqamətlərdə yeni metod və vasitələrdən səmərəli istifadə etməlidirlər. Əminəm ki, Avropa Azərbaycanlıları Konqresinin bu ali toplantısı yüksək işgüzarlıq şəraitində keçəcək, irəli sürülən təkliflər və qəbul edilən qərarlar qurumun işini keyfiyyətcə daha yüksək mərhələyə qaldırmağa xidmət edəcəkdir.

Qurultay iştirakçılarına bu yolda nailiyyətlər, Konqresin yeni seçiləcək rəhbər heyətinə ardıcıl və məhsuldar fəaliyyət arzulayıram.

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 fevral 2017-ci il*

## Prezident İlham Əliyevin Qətər Dövlətinə rəsmi səfəri

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 26-da Qətər Dövlətinə rəsmi səfər edib. Azərbaycanın və Qətərin dövlət bayraqlarının dalğalandığı Doha şəhərindəki «Hamad» beynəlxalq aeroportunda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Dövlətimizin başçısını Qətərin iqtisadiyyat və ticarət naziri Şeyx Əhməd bin Casim bin Mohammad Al Tani və digər yüksək vəzifəli dövlət və hökumət rəsmiləri qarşılayıblar.

Prezident İlham Əliyev Qətər Dövlətinə səfəri çərçivəsində Dohada bir sıra görüşlər keçirib. «Al Faisal Holding» şirkətinin rəhbəri və Qətər İş Adamları Assosiasiyasının sədri Şeyx Faisal bin Qassim bin Faisal Al Tani ilə görüşdə bu səfərin ikitərəfli əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyəti qeyd edilib, ticarət və investisiya sahələrində əməkdaşlığın perspektivləri müzakirə olunub. «Qatar Petroleum»un prezidenti və icraçı direktoru Saad Şerida al-Kaabi ilə görüşdə isə Azərbaycan ilə «Qatar Petroleum» arasında əməkdaşlıq imkanları müzakirə edilib, bir sıra layihələrdə birgə iştirakın mümkünlüyü vurğulanıb, bu şirkətin gələcəkdə Xəzər dənizində və ya SOCAR-ın digər ölkələrdə həyata keçirdiyi layihələrdə Azərbaycan ilə birgə iştirakı məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Fevralın 27-də Prezident İlham Əliyevin Əmir sarayında rəsmi qarşılanma mərasimi olub. Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb, hər iki dövlət başçısı fəxri qarovul dəstəsinin qarşısından keçiblər. Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Əmir Şeyx Təmim bin Həməd Al Taniyə, Qətər Dövlətinin nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olunub.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Taninin geniş tərkibdə görüşü olub. Görüşdə son vaxtlar iki ölkə arasında müxtəlif sahələri əhatə edən əməkdaşlıq münasibətlərinin sürətlə inkişaf etdiyi bildirilib. Azərbaycana səfərini xatırladan Əmir respublikamızın sürətlə inkişafının şahidi olduğunu diqqətə çatdıraraq bildirib ki, ölkəmizdə sabitlik və təhlükəsizlik mövcuddur. Bu da həm iqtisadi, həm turizm sahələrində inkişafa imkan yaradır. Qətər Dövlətinin Əmiri qarşılıqlı səfərlərin ölkələrimiz arasında əməkdaşlığın inkişafına xidmət edəcəyini vurğulayıb.



Azərbaycan Prezidenti İlham Əliyev Qətərə əvvəlki səfərini ötən müddət ərzində ölkədə böyük inkişafın şahidi olduğunu xatırladıb. Dövlətimizin başçısı Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində aparılan islahatlardan, qeyri-neft sektorunun inkişafından danışaraq vurğulayıb ki, əsas məqsəd qeyri-neft sektoru məhsullarının xarici bazarlara ixrac edilməsidir. Söhbət zamanı müxtəlif istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı, turizm, mədəniyyət, infrastruktur sahələrində əlaqələrin genişləndirilməsinin önəmi vurğulanıb, digər ölkələrdə müxtəlif sahələrdə layihələrin icrasına birgə sərmayə qoyuluşu, neft və qaz sahəsində əməkdaşlıq imkanları müzakirə olunub.

Daha sonra hər iki dövlət başçısının təkbətək görüşü olub. Görüşdə ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, Azərbaycan Prezidentinin Qətərə səfərinin əlaqələrimizin daha da genişləndirilməsi və əməkdaşlığın perspektivlərinin müəyyən edilməsi baxımından əhəmiyyəti qeyd edilib. Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin iştirakı ilə Azərbaycan-Qətər sənədlərinin imzalanması mərasimi olub. Mərasimdə «Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında», «Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında», «Azərbaycan Respublikası Mülki Aviasiya Administrasiyası və Qətər Dövləti Mülki Aviasiya Administrasiyası arasında», «Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında kökü kəsilmək təhlükəsi qarşısında olan vəhşi təbiətin qorunması və onun təbii mühitinin mühafizəsi sahəsində əməkdaşlığa dair», Bakı Beynəlxalq Dəniz Ticarət Limanı» QSC və Qətər Limanları İdarəetmə Şirkəti «MWANİ Qatar» arasında» anlaşma memorandumları və Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında hava daşımalarına dair» Sazişə əlavə Protokol da imzalanıb.

BU NÖMRƏMİZDƏ

VERGİ XİDMƏTİ YENİ İSLAHATLAR VƏ TRANSFORMASİYA YOLUNDA 2

VERGİLƏR NAZİRİ GƏDƏBƏYDƏ VƏTƏNDAŞLARI QƏBUL EDİB 4

PARTNYOR VERGİ ÖDƏYİCİLƏRİNƏ BİLDİRİŞLƏR TƏQDİM OLUNUB 5

YAXŞI ƏNƏNƏNİN BAŞLANĞICI 6

# Vergi xidməti yeni islahatlar və transformasiya yolunda

**Azərbaycan Respublikasının vergilər naziri, birinci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədovun Avropadaxili Vergi Administrasiyaları Təşkilatının saytında (www.iota-tax.org) yerləşdirilmiş məqaləsində son aylar ölkəmizin vergi sistemində aparılmış islahatlar, vergi inzibatçılığındakı dəyişikliklərin əsas istiqamətləri ətraflı şəkildə şərh edilib. Məqalədə vergi siyasətinin tənzimləyici rolunun artırılması, əlverişli, şəffaf və cəlbedici vergi mühitinin formalaşdırılması, vergi ödəyicilərinə göstərilən xidmətlərin təkmilləşdirilməsi və müasir korporativ idarəetmə sisteminin qurulması kimi məsələlərə aydınlıq gətirilib.**



Aparılan uğurlu və düşünülmüş iqtisadi siyasətin nəticəsi olaraq Azərbaycan iqtisadiyyatı son illərdə sürətli inkişaf mərhələsindən keçib, neft gəlirlərinin səmərəli istifadəsi sayəsində ölkə iqtisadiyyatının diversifikasiyasına müvəffəq olunub, qeyri-neft sektorunun inkişafında əhəmiyyətli irəliləyişlər əldə edilib. İnkişaf etməkdə olan ölkəmiz istər regionda, istərsə də dünya miqyasında yüksək artım templəri nümayiş etdirən dövlətlərdən biri kimi tanınır. Son bir neçə ildə dünya iqtisadiyyatı qlobal transformasiyaların, mövcud siyasi-iqtisadi problemlərin təsiri nəticəsində yenidən durğunluq və tənəzzül meyilləri ilə üzləşib. Milli iqtisadiyyatların kənar təsirlərə qarşı həssaslığının artdığı bir vaxtda inkişaf proseslərinə təsir göstərən qlobal faktorların da sayı ciddi şəkildə artıb, bütün ölkələrin bu və ya digər dərəcədə qlobal böhranın təsirlərinə və onun doğurduğu fəsadlara məruz qalması qaçılmaz hal alıb.

Zamanın iqtisadi gerçəkliklərinə hər zaman çevik münasibəti ilə fərqlənən ölkəmizdə son illər həyata keçirilən qabaqlayıcı iqtisadi-sosial siyasət nəticəsində belə qlobal böhranların fəsadları minimallaşdırılıb. Neft gəlirlərinin ölkənin qeyri-neft sektorunda alternativ gəlir mənbələrinin yaranmasına yönəldilməsi istiqamətində aparılan işlər, bu sahəyə xarici investisiyaların cəlb edilməsi, işgüzar mühitin və biznesin fəaliyyəti üçün yaradılan şərait Azərbaycanın müxtəlif böhranların uzunmüddətli təsirlərinə qarşı dayanıqlı iqtisadi bazasının formalaşmasına imkan verib. Təsadüfi deyil ki, bütün bunlar qısa müddət ərzində ölkəmizin bir çox beynəlxalq reytinqlərdə mövqeyinin yaxşılaşmasına gətirib. 2016-cı ildə Dünya İqtisadi Forumunun tərtib etdiyi Qlobal Rəqabətqabiliyyətlilik Hesabatında Azərbaycan 138 dövlət arasında 37-ci yerdədir (MDB ölkələri sırasında isə 1-ci yerdə). Dünya Bankının 190 ölkənin biznes mühitini qiymətləndirən «Doing Business 2017» hesabatında isə ölkəmiz 65-ci pillədə qərarlaşıb. Bu hesabatda Azərbaycan biznesin qeydiyyatını sadələşdirməklə «Biznesə başlama» göstəricisi üzrə dünyada ilk beşliyə daxil olub və ən yaxşı təcrübəyə malik ölkələrdən biri kimi qeyd edilib.

### Yeni iqtisadi inkişaf modeli - milli iqtisadiyyatın yol xəritələri

Son bir neçə ildə dünya iqtisadiyyatının yeni siklə daxil olması, dünya enerji bazarlarında neftin kəskin ucuzlaşması bütün neft ixracatçısı ölkələrinə, o cümlədən Azərbaycana da təsirsiz ötüşməyib. Belə bir şəraitdə ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycan iqtisadiyyatının liberallaşdırılması, rəqabət qabiliyyətinin artırılmasını, idxaldan asılılığın azaldılmasını, ixracyönümlü qeyri-neft sektorunun əsaslı inkişafının təmin edilməsini, insan kapitalından səmərəli istifadə edilməsi məqsədilə iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılmasını, bu istiqamətdə davamlı və ardıcıl islahatların aparılmasını hökumətin qarşısında 2016-cı il üçün mühüm vəzifə olaraq müəyyənləşdirmişdi. Beləliklə, yeni iqtisadi strategiyanın hazırlanması və müvafiq institusional və konseptual islahatların həyata keçirilməsi ciddi bir zərurət olaraq ortaya çıxıb.

Yeni inkişaf dövründə ölkəmizin qarşısında duran məsələlərin həlli və dayanıqlı inkişafa nail olmaq istiqamətində mühüm addımlardan biri də «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri»nin təsdiq olunmasıdır. Bu xəritə, eləcə də iqtisadiyyatın 12 əsas sektoru üzrə təsdiq edilmiş strateji yol xəritələri Azərbaycanın yaxın gələcək üçün hədəflərini və prioritet inkişaf istiqamətlərini müəyyən edən fundamental sənəd toplusu olmaqla, ölkənin yeni iqtisadi modelinin əsasını təşkil edir. Strateji yol xəritələri 2016-2020-cı illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr üzrə qarşıya qoyulmuş hədəfləri özündə əks etdirir. İqtisadiyyatın mövcud vəziyyətinin dərin təhlilinə əsaslanan bu sənədlərdə ayrı-ayrı sektorların inkişaf istiqamətləri, rəqabətqabiliyyətliliyin daha da artırılması, investisiyaların cəlbi, azad rəqabət mühiti, dünya bazarlarına çıxış, Azərbaycanın dünya iqtisadiyyatında mövqeyinin və etibarlı tərəfdaş imicinin gücləndirilməsi əsas vəzifələrdən biri kimi müəyyən edilib.

**Əsas yanaşma kiçik və orta sahibkarlıq subyektləri ilə iri və xüsusi rejimli müəssisələrlə iş prinsiplərini ayırmaq, hər bir sahibkarlıq qrupuna fərdi yanaşmanı, eləcə də fiskal və inzibatçılıq yükünün düzgün bölüşdürülməsini təmin etməkdir**

Yeni çağırışların yarandığı dövrdə Azərbaycanın iqtisadi prioritetləri, bunların həyata keçirilməsi yolları, o cümlədən 2017-ci ildə ölkəmizin qarşısında duran əsas məsələlər ölkə Prezidenti cənab İlham Əliyevin Davos Forumunun saytında yayımlanmış məqaləsində geniş şərh edilir. Yeni erada qarşıda duran əsas məqsədlər sırasında iqtisadiyyatda qeyri-neft sektorunun diversifikasiyası prosesinin dərinləşdirilməsi, maliyyə sisteminin sağlamlaşdırılması, əhalinin gəlirlilik səviyyəsinin və məşğulluğunun artırılması da yer alır. Hazırda Azərbaycanda struktur və institusional islahatlar davam etdirilir, iqtisadi potensialın gücləndirilməsi məqsədilə ixracyönümlü məhsulların istehsalının artırılmasına, aqroparkların və iri fermer təsərrüfatlarının, sənaye parklarının və zonalarının yaradılmasına, ölkənin tranzit və logistik potensialının yüksəldilməsinə dövlət tərəfindən güclü dəstək verilir. Bunlarla paralel dövlət idarəetmə sistemi təkmilləşdirilir, bütün sahələrdə, o cümlədən vergi və gömrük sistemində şəffaflıq təmin edilməkdədir.

### Çağırışlar və dəyişikliklər üçün açıq vergi sisteminə doğru

İslahatları dəstəkləyən mühüm dövlət qurumu rolunda çıxış edən milli vergi sistemi, öz növbəsində, daim iqtisadi situasiyanın dəyişməsinə operativ və adekvat reaksiya verməkdədir. Son illərdə vergi sisteminin inkişafına, vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsinə, institusional potensialın gücləndirilməsi istiqamətində əsaslı nailiyyətlər əldə edilməsinə baxmayaraq, Azərbaycan iqtisadiyyatının yeni inkişaf istiqamətləri, biliklərə əsaslanan müasir iqtisadiyyatın qurulması vergi xidməti qarşısında da yeni vəzifələr müəyyən edir. Bu vəzifələrin sırasına ilk növbədə iqtisadi siyasətin mühüm qolu olan və biznes fəaliyyətinin tənzimlənməsində effektiv alət hesab edilən vergi siyasətinin tənzimləyici rolunun artırılması, əlverişli, şəffaf və cəlbedici vergi mühitinin formalaşdırılması, vergi inzibatçılığının yeni səviyyəyə qaldırılması, sahibkarlar üçün xidmətlərin təkmilləşdirilməsi və müasir korporativ idarəetmə sisteminin qurulması daxildir.

### İntensiv islahatlar ili

İqtisadiyyatda yeni eranın başlanması 2016-cı ildə vergi sistemində də fundamental islahatları labüdləşdirib. «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri»nə dair sənəddə, eləcə də «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»ndə yeni dövrdə vergi sisteminin qarşısında duran mühüm vəzifələr öz əksini tapır. Bunlar vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması, habelə ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsi, verginin stimullaşdırıcı təsirinin önə çəkilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsidir. Bu istiqamətdə atılan mühüm addımlardan biri də Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»dir ki, bu da ötən il həyata keçirilən tədbirlərin əsas konturlarını müəyyən edib.

Vergi risklərinin müəyyən edilməsi və yayındırılan vergilərin aşkarlanması məqsədilə «risklərin idarə edilməsi» sistemi kimi innovativ alətlər uğurla tətbiq olunub, iri vergi ödəyicilərində elektron auditin tətbiqi dairəsi genişləndirilib, vergi yoxlamalarının bütün növlərinin həyata keçirilməsi ilə bağlı qaydalar təkmilləşdirilib, elektron xidmətlərin sayı artırılıb, ölkəmizə turist axınının artımında mühüm rol oynayan «Tax free» sisteminin tətbiqinə başlanılıb. 2016-cı ildə OECD-nin Qlobal Forumunun Qiymətləndirmə Qrupu Azərbaycan Respublikasının vergi sistemində şəffaflığın və məlumat mübadiləsi sisteminin beynəlxalq standartlara uyğunluğu ilə bağlı hesabatı qəbul edərək ölkəmizə yüksək reytinq verib. Bundan başqa, intizamlı vergi ödəyicilərinə «yaşıl dəhliz» prinsipi əsasında fərdi və sürətli innovativ texnologiyalara söykənən xidmətlərin göstərilməsi üçün hazırlıq işləri başa çatdırılıb. Bütün bunlar vergi sistemində şəffaflığın daha da artırılmasına, vergi orqanları və sahibkarlar arasında münasibətlərin yeni müstəviyə qaldırılmasına şərait yaradıb.

### Liberallaşan Vergi Məcəlləsi

Vergi qanunvericiliyinin təkmilləşdirilməsi məqsədilə qısa müddət ərzində beynəlxalq təşkilatlar, maliyyə institutları, sahibkarların ictimai birlikləri, biznes nümayəndələri ilə sıx və konstruktiv dialoq əsasında Vergi Məcəlləsinə və digər qanunvericilik sənədlərinə həm həcm, həm də mahiyyət baxımından ciddi və böyük dəyişikliklər edilməsi ilə bağlı layihələr hazırlanıb və 2016-cı ilin sonunda qəbul edilib. Bu dəyişikliklərin əsas məqsədi kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimad səviyyəsinin yüksəldilməsi, vergi yükünün optimallaşdırılması, vergi ödəyicilərinin hüquqlarının qorunması, onların vaxt itkisinə məruz qalmaması və vergi öhdəliklərinin daha rahat şəkildə yerinə yetirilməsi, bir sıra vergi ödəyiciləri üçün güzəştlərin müəyyən edilməsi yolu ilə sosial bərabərliyin təmin olunması, nağdsız əməliyyatların həcminin artırılması, vergitutma bazasının genişləndirilməsi, pul dövriyyəsinin tənzimlənməsi, bankların likvidliyinin və bilavasitə vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, uçotun dürüstlüyünün və şəffaflığının təmin olunmasıdır.

Bununla yanaşı, Vergi Məcəlləsinə beynəlxalq təcrübəyə əsaslanan bir sıra mütərəqqi yeniliklərlə bağlı müddəalar da əlavə edilib. Bunların sırasına vergi öhdəliklərinin hüquqi nəticələr doğurmazdan əvvəl vergi orqanları ilə razılaşdırılması qaydası və vergi ödəyicilərinin hüquqlarının qorunmasına xidmət edən «Könüllü vergi açıqlaması» sisteminin tətbiqi, transfert qiymətlərinə və ofşor zonalarda qeydiyyatdan keçmiş müəssisələrlə aparılan əməliyyatlara nəzarət mexanizmlərinin qurulması, rəqəmsal iqtisadiyyatın, xüsusilə elektron ticarət üzərində vergi mexanizmlərinin yaradılması daxildir. E-ticarət üzərində vergi mexanizmlərinin yaradılması hazırda dünya vergi administrasiyalarının qarşısında duran həlli mürəkkəb problemlərdən biridir. Bu sahədə vergi mexanizmlərinin qurulması məqsədilə bir çox ölkələrin, xüsusilə aparıcı Avropa dövlətlərinin təcrübəsi öyrənilib və MDB məkanında problemin ən effektiv və spesifik həlli məhz Azərbaycanın vergi qanunvericiliyində öz əksini tapıb.

**Vergi islahatlarının davamlılığı xüsusilə yeni yaranan müəssisələrin dayanıqlılığına müsbət təsir göstərəcək, ölkədə xarici şirkətlərin nümayəndəliklərinin açılmasını təşviq edəcək və iqtisadiyyatın qeyri-neft sektoruna investisiyalar cəlb edilməsi üçün daha əlverişli şərait yaradacaq**

Göründüyü kimi, qanunvericiliyə edilmiş dəyişikliklər çoxvektorlu hədəflər müəyyən edir ki, bu da, şübhəsiz, vergi administrasiyasının yeni tələblərə uyğunlaşdırılması zərurətini yaradır. Vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi sahəsində son illər görülən böyük həcmli işlər, həmçinin qarşıya qoyulmuş yeni hədəflər daha çevik, yeni tələblərə adaptasiya oluna bilən, öz vəzifələrini zamanın çağırışlarına dərhal və adekvat uzlaşdıra bilən, müasir korporativ idarəetmə prinsiplərinə söykənən dinamik struktura malik administrasiyanın qurulmasını tələb edir.

Vergi administrasiyasının rəhbərliyi qarşıya qoyulmuş bu hədəfin reallaşdırılması üçün praktiki addımlar atıb. Həm qanunvericilik, həm də vergi sistemində inzibatçılığın təkmilləşdirilməsi sahəsində həyata keçirilən islahatları koordinasiya etmək məqsədilə Vergilər Nazirliyində İdarəetmə Mərkəzi yaradılıb. Bu Mərkəz Vergilər Nazirliyində keçirilən kollegiya iclaslarında qəbul edilmiş tədbirlər planlarında nəzərdə tutulmuş məsələlərin çevik və sürətlə icra edilməsi məqsədilə hazırda intensiv işlər görür.

### Vergi ödəyiciləri yönümlü administrasiyaya keçid

Vergi sistemində aparılan islahatların məntiqi davamı administrasiyanın təkmilləşdirilməsini və təşkilati strukturunun transformasiyasını labüdləşdirir.

Vergilər Nazirliyi buna qədər də daim canlı və dinamik qurum kimi fəaliyyət göstərib, öz inzibati resurslarını və sistemdaxili strukturunu iqtisadiyyatın dəyişən tələblərinə uyğun qurub, zərurət yarandıqca vergi inzibatçılığında və idarəetmə sistemində islahatlar aparıb. Bununla belə, milli vergi administrasiyasındakı son dəyişikliklər istər mahiyyət, istərsə də əhatə baxımından daha genişdir. Bu, 2002-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə aparılmış və vergi inzibatçılığının regional prinsiplər əsasında həyata keçirilməsini nəzərdə tutan köklü struktur və təşkilati islahatlardan sonra vergi xidmətinin bütün idarəetmə həlqələrinin, menecment sisteminin dəyişilməsini ehtiva edən və vergi ödəyiciləri yönümlü administrasiyaya çevrilməsini nəzərdə tutan ikinci belə transformasiyadır.

Vergi sisteminə yeni baxış bucağı, ilk növbədə, iki mühüm prinsip üzərində qurulur. Bunlardan birincisi və ən önəmlisi «fərdi yanaşma» prinsipidir. İndiyədək vergi xidmətində işin əsas ağırlığı böyük dövriyyəsi olan vergi ödəyiciləri ilə aparılan işlərə yönəldilirdi və dövriyyələrindən asılı olmayaraq bütün vergi ödəyicilərinə (iri, orta və kiçik) eyni inzibati mexanizmlər tətbiq edilirdi. Yeni dönəmdə vergi administrasiyasının ilkin vəzifəsi bu yanaşmanı dəyişmək, hər kateqoriya vergi ödəyicisinə ona uyğun yanaşmalar formalaşdırmaqdır. Bu məqsədlə beynəlxalq təcrübədə geniş istifadə olunan «dövriyyə intervalları» prinsipini vergi inzibatçılığının bütün sahələrində tətbiq etməklə, vergi ödəyicilərinə münasibətdə yanaşmanı diferensiallaşdırmaq, daha səmərəli, çevik və şəffaf inzibatçılıq formalaşdırmaq nəzərdə tutulur. Burada əsas yanaşma kiçik və orta sahibkarlıq subyektləri ilə iri və xüsusi rejimli müəssisələrlə iş prinsiplərini ayırmaq, hər bir sahibkarlıq qrupuna fərdi yanaşmanı, eləcə də fiskal və inzibatçılıq yükünün düzgün bölüşdürülməsini təmin etməkdir.

İkinci mühüm prinsip isə sahibkarlıq subyektləri ilə «partnyorluq münasibətlərinin qurulması və dərinləşdirilməsi» prinsipidir. Vergilər Nazirliyi sahibkarlıq subyektləri ilə partnyorluq münasibətlərinin qurulmasına artıq bir neçə ildir başlasa da, yeni yanaşmada bu münasibətlərin konkret əsaslara keçilməsi və dərinləşdirilməsi, vergi ödəyicilərinin öhdəliklərinin dəqiqləşdirilməsi, onlara müasir və innovativ xidmətlərin göstərilməsi əsas götürülüb. Bu məqsədlə yenə də beynəlxalq təcrübədən faydalanaraq intizamlı vergi ödəyiciləri üçün «yaşıl dəhliz» prinsipi əsasında innovativ yeniliklərə söykənən fərdi və sürətli ünvanlı xidmətlər sisteminin tətbiqi qərara alınıb.

### Təşkilati strukturun transformasiyası

Beləliklə, bu mühüm prinsiplər vergi orqanlarının yeni təşkilati strukturunun formalaşdırılması üçün təməl kimi qəbul edilib və Vergilər Nazirliyinin strukturunun müasir tələblər əsasında yenidən qurulmasına gətirib.

Yeni təşkilati strukturun mühüm elementlərindən biri kimi nazirliyin mərkəzi aparatında Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamenti yaradılıb. Departamentin birbaşa funksiyalarına vergi ödəyiciləri ilə işin konstruktiv dialoq, qarşılıqlı etimad və partnyorluq əsaslarında qurulmasına, onların məlumatlandırılmasına, ödəyicilər üçün özəl təlimlərin təşkil edilməsinə, bu məqsədlə geniş təşkilati və administrativ tədbirlərin həyata keçirilməsinə, nəticə etibarilə vergi mədəniyyətinin yüksəldilməsinə nail olmaq daxildir.

Qeyd etmək lazımdır ki, 2017-ci ilin yanvar ayından başlayaraq intizamlı vergi ödəyiciləri üçün «yaşıl dəhliz» prinsipi əsasında ənənəvi və innovativ üsullara söykənən fərdi və sürətli ünvanlı xidmətlərin göstərilməsinə təşkilati və inzibati nəzarəti məhz bu yeni struktur yerinə yetirir. Bu ödəyicilər ənənəvi xidmətlərlə yanaşı, İKT-nin son nailiyyətlərinə əsaslanan innovativ xidmətlər də əldə edirlər. Belə xidmətlərə videobağlantılar, çağrı və xidmət mərkəzlərində növbəsiz və sürətli xidmətlərin göstərilməsi, partnyor ödəyicilərin müraciəti əsasında onlar üçün «dəyirmi masa», seminar və konfransların təşkili, xüsusi təlim proqramlarının hazırlanması və s. aiddir. Koordinasiya işlərinin təşkili məqsədilə hər bir partnyor ödəyici üçün aidiyyəti vergi strukturundan ayrılan kuratorlar onlara ünvanlı xidmətlər göstərirlər. Bütün bunlar intizamlı vergi ödəyicilərinin stimullaşdırılmasına və sahibkarların rahat fəaliyyət göstərməsinə xidmət edir. Bu, digər vergi ödəyiciləri üçün də nümunədir və şübhəsiz ki, intizamlı vergi ödəyicisi olmağın üstünlüklərini nümayiş etdirməklə digər ödəyiciləri də buna təşviq edəcəkdir.

Vergi ödəyicilərinin fəaliyyətinin risk modulları üzərindən təhlil olunması, vergidən yayınma hallarının müasir texnologiyalara əsaslanaraq aşkar edilməsi, vergi nəzarəti metodlarının təhlil olunmuş məlumatlar əsasında seçilməsi, vergi potensialının daha dəqiq qiymətləndirilməsi, risklərin müasir İKT vasitələrindən istifadə edilməklə idarə olunmasını həyata keçirmək, eləcə də çoxsaylı dövlət qurumlarının inteqrasiya olunmuş elektron məlumat bazalarından əldə edilmiş məlumatların emalını təmin etmək məqsədilə nazirliyin strukturunda Vergi risklərinin təhlili və nəzarəti departamenti fəaliyyət göstərir.

Nazirliyin aparatında aparılmış digər dəyişikliklərlə idarəetmə funksiyalarının təkmilləşdirilməsi, vergi orqanlarının fiskal funksiyalarına daxil olan sahələr üzrə əlaqələndirilməsi, o cümlədən vergi nəzarəti, audit, vergi borclarının alınması sahəsində fəaliyyətin effektivliyinin artırılması məqsədilə Vergi qanunvericiliyinin icrasına nəzarət və Vergi öhdəliklərinin icrasına nəzarət departamentləri yaradılıb.

Nazirliyin mərkəzi aparatında 2 yeni mərkəz də təsis edilib. Vergilər Nazirliyinin İnformasiya Texnologiyaları Mərkəzi (İTM) vergi sistemində informasiya texnologiyalarının daha geniş tətbiqi və nazirliyin İKT strategiyasının səmərəli həyata keçirilməsi ilə məşğul olur və bu sahədə vahid idarəetməni təmin edir. İTM-in əsas vəzifəsi vergi orqanlarında informasiya proseslərinin əlaqələndirilməsinə, geniş imkanlara malik proqram təminatlarının hazırlanması və onların fasiləsiz işlək vəziyyətdə saxlanılmasına, məlumat təhlükəsizliyinin təmin edilməsinə, bu sahələrdə risklərin qiymətləndirilməsinə, informasiya ehtiyatlarının və sistemlərinin mümkün təhdidlərdən qorunmasına, elektron imza vasitələrinin hazırlanması, tərtibi və idarə edilməsinə, müasir informasiya texnologiyaları infrastrukturu qurmaqla vergi inzibatçılığının təkmilləşdirilməsinə töhfə verməkdir.

**Davamı 3-cü səhifədə**

# Vergi xidməti yeni islahatlar və transformasiya yolunda

Əvvəli 2-ci səhifədə

Media və Kommunikasiya Mərkəzi isə vergi ödəyicilərinin və cəmiyyətin bütün təbəqələrinin məlumatlandırılması, vergi sistemində həyata keçirilən islahatların, vergi qanunvericiliyində baş vermiş dəyişikliklərin İKT-nin imkanlarından istifadə etməklə ictimaiyyətə düzgün çatdırılması, bu sahədə yeni yanaşmaların və yeni vahid kommunikasiya siyasətinin formalaşdırılması, media ilə işlərin müxtəlif platformalarda və sosial müstəvilərdə yenidən təşkili və genişləndirilməsi məqsədilə yaradılıb.

Paytaxtda, eləcə də regionlarda fəaliyyət göstərən vergi orqanlarının da strukturunda ciddi dəyişikliklər edilib. Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamenti və 1 saylı Departament ləğv edilərək onların bazasında Vergilər Nazirliyi yanında Milli gəlirlər departamenti, Bakı şəhəri Lokal gəlirlər departamenti və Bakı şəhəri Kiçik sahibkarlıqla iş departamenti yaradılıb. Bu departamentlərin yaradılması «dövriyyə intervalları» prinsipinə söykənir və vergi ödəyiciləri ilə işin qurulmasında yanaşmaları diferensiallaşdırmaq, iri, orta və kiçik sahibkarlarla fərdi yanaşma əsasında işləmək məqsədi daşıyır. Artıq strukturların fəaliyyət prinsipləri, vergi ödəyiciləri ilə işin qurulması ilə bağlı normativ-hüquqi bazası da təsdiq edilib.

Həyata keçirən struktur və kadr islahatlarının daha bir mühüm məqamı yeni yaradılmış departamentlərdə direktorlar və baş direktorlar institutunun təsis edilməsidir. Direktorluq institutu işlərin və funksiyaların icrasında cavabdehlik və məsuliyyəti artırmaqla yanaşı, həm də idarəetmə sistemində horizontal və vertikal nəzarətin effektiv şəkildə həyata keçirilməsinə imkan verəcək, yeni yaradılmış departamentlərin daha səmərəli, düzgün və rasional idarə olunmasını təmin edəcəkdir.

## Beynəlxalq təcrübəyə əsaslanan yeni yanaşmalar

Vergi inzibatçılığının yeni strukturu, ilk növbədə, iri vergi ödəyiciləri üzrə işlərin daha keyfiyyətli təşkilinə, orta sahibkarlarla münasibətlərin əsasən partnyorluq müstəvisində qurulmasına, kiçik sahibkarlara münasibətdə isə daha sadə və səmərəli vergi inzibatçılığının formalaşdırılmasına xidmət edir. Fərqli dövriyyəyə malik və fərqli sahələrdə fəaliyyət göstərən vergi ödəyicilərinə fərdi yanaşma prinsipinin tətbiqi belə ödəyicilərə daha səmərəli xidmətlərin göstərilməsinə, onlarda vergi nəzarəti tədbirlərinin minimallaşdırılmasına, həmin ödəyicilərə münasibətdə vergilərlə bağlı bütün tədbirlərin vahid vergi orqanından, faktiki olaraq «bir pəncərə» prinsipi üzrə həyata keçirilməsinə imkan verir.

Vergilər Nazirliyi iri və xüsusi rejimli müəssisələrlə iş prinsipində geniş analitik təhlilə və risklərin qiymətləndirilməsi sisteminə əsaslanan siyasət yürüdəcək. Bu sahədə daha çox mövcud risklərin qiymətləndirilməsi, elektron auditin tətbiqi siyasətinə üstünlük veriləcək. Belə ödəyicilərdə vergidən yayınma riskləri fərdi və təfərrüatlı şəkildə aparılacaq, elmi əsaslı iqtisadi təhlillər əsasında proqnozlar müəyyən ediləcək, vergi nəzarəti tədbirləri, o cümlədən səyyar vergi yoxlamaları daha müfəssəl və əhatəli keçiriləcək.

Orta gəlirlərə malik lokal müəssisələrlə və intizamlı vergi ödəyiciləri ilə iş prinsipi isə şəffaf partnyorluq münasibətləri əsasında qurulacaq. Belə ödəyicilərə münasibətdə vergidən yayınma halları fəaliyyət sahəsinin xüsusiyyətləri nəzərə alınmaqla müəyyən ediləcək, vergi nəzarəti üzrə optimal tədbirlər seçiləcək.

Kiçik sahibkarlara münasibətdə tamamilə yeni yanaşmalar tətbiq olunacaq. «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»ndə müəyyən edildiyi kimi, Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması məqsədilə aparılan vergi islahatlarında əsas diqqət kiçik və orta sahibkarlıq subyektlərinə (KOS) yönəldiləcək. Vergilər Nazirliyi tərəfindən vergi dərəcələrinin optimal səviyyəsinin müəyyənləşdirilməsi və KOS-un dinamik inkişafı məqsədilə biznes assosiasiyaları, ictimai təşkilatlar cəlb edilməklə məsləhətləşmələr aparılacaq, vergi siyasətində əsas diqqət əməkhaqlarına, habelə KOS subyektlərinin öz dövriyyələrini leqallaşdırmağa təşviq edilməsinə yönəldiləcək. Kiçik sahibkarlara münasibətdə əks-əlaqə prinsipi tətbiq olunacaq. Məqsəd daha çox məlumatların ötürülməsi, uçotun dəqiqləşdirilməsi, xidmət çeşidlərinin artırılması, bu kateqoriya sahibkarlıq subyektlərinin vergi və inzibati yükünün azaldılması ilə könüllü əməletmə səviyyəsini yüksəltməkdir.

Vergilər Nazirliyi hesabatlılığın və bəyannamələrin təqdim olunması sistemində də dəyişikliklər edəcək. Kiçik və orta sahibkarlıq subyektləri üçün bəyannamə və hesabat formaları sadələşdiriləcək. Müasir dövrdə vergi orqanları qarşısında duran başlıca vəzifələrdən biri aşağı risk qrupuna daxil olan vergi ödəyicilərinə hərtərəfli dəstəyin verilməsi, partnyorluq sazişləri əsasında vergi risklərinin minimallaşdırılmasıdır. İri və xüsusi rejimli müəssisələr üçün isə hesabatlılıqda analitik təhlillərin aparılmasına imkan verəcək təkmilləşdirmələr aparılacaq. Bu yanaşma ərazi vergi orqanlarında da tətbiq edilib. Yerli vergi orqanlarının strukturunda kiçik sahibkarlarla işləyəcək ayrıca idarələr və vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu şöbələri yaradılıb.

Sahibkarları narahat edən əsas məsələlər - vergi yoxlamaları, xüsusilə kameral yoxlamalar, operativ nəzarət tədbirləri sahələrində müşahidə olunan problemlər, o cümlədən vergi əməkdaşları tərəfindən edilən aramsız zənglər, bank hesablarına tez-tez sərəncamların qoyulması və s. kimi məsələlər aradan qaldırılıb. Mühüm məsələlərdən biri də budur ki, yeni administrativ yanaşmada vergi orqanlarının təhlil aparılmadan, onun zəruri əsaslandırılması olmadan yoxlama keçirməsinin mümkünsüzlüyü öz əksini tapıb. Vergi öhdəlikləri və vergi potensialı risk modulları üzərindən dəyərləndiriləcək. Artıq Vergilər Nazirliyində risklərin avtomatik emal edilməsinə, təhlilinə və vergi ödəyicilərinin risk meyarları üzrə qruplaşdırılmasına imkan verən risklərin qiymətləndirilməsi sistemi yaradılıb. Yerli strukturlar, ümumiyyətlə, öz qərarları əsasında vergi nəzarəti tədbirləri keçirməyəcək. Aşağı risk qrupları üçün vergi ödəyicilərinin hesablarına sərəncam qoyulması, ölkədən çıxışlarına məhdudiyyətlərin müəyyən edilməsi məhdudlaşdırılacaq, KOS subyektlərində yoxlamalar təkmilləşdiriləcək. İlk növbədə, KOS subyektlərində yoxlamaların risk dərəcəsi əsasında aparılması prinsiplərinin tətbiqi genişləndiriləcək, yoxlamaların sayı optimallaşdırılacaq. KOS subyektlərində səyyar yoxlamaların sayı məhdudlaşdırılacaq və elektron yoxlama metodu tətbiq ediləcək. Operativ vergi nəzarəti prosesi təkmilləşdirilərək yeni qaydalara uyğun, daha sivil formada aparılacaq. İKT sahəsində yeni innovativ texnologiyaların tətbiqi sayəsində ƏDV-nin qaytarılması prosesi sürətləndiriləcəkdir. 2011-ci ildən təsdiqlənmiş Avropa standartları əsasında fəaliyyət göstərən («Austrian Standards plus» tərəfindən müvafiq sertifikat verilib) və cavablandırdığı sorğuları hüquqi qüvvəyə malik olan Vergilər Nazirliyinin Çağrı Mərkəzinin fəaliyyəti daha da təkmilləşdiriləcək.

Bütün bu dəyişikliklər iqtisadiyyatın cari strukturlaşdırılmasına uyğun olaraq yaxın gələcək üçün əsas fiskal yükün iri ödəyicilər üzərində cəmlənməsinə, kiçik və orta sahibkarlığın vergi və inzibati yükünün azaldılması yolu ilə onların fəaliyyətinin daha da genişlənməsi hədəflərinə xidmət edir. Vergi islahatlarının davamlılığı KOS subyektlərinin rəqabət qabiliyyətini daha da artıracaq, xüsusilə yeni yaranan müəssisələrin dayanıqlılığına müsbət təsir göstərəcək, ölkədə xarici şirkətlərin nümayəndəliklərinin açılmasını təşviq edəcək və iqtisadiyyatın qeyri-neft sektoruna investisiyalar cəlb edilməsi üçün daha əlverişli şərait yaradacaq.

Beləliklə, cənab Prezidentin Davos Forumunun saytında yayımlanmış məqaləsində də qeyd edildiyi kimi, vergi və gömrük sisteminin şəffaflaşması istiqamətində çox ciddi addımlar atılıb. Şübhəsiz ki, həm dövlət, həm də vergi orqanları bütün bu yeniliklərin vergi ödəyiciləri tərəfindən də adekvat qarşılanacağına, onların öz vergi öhdəliklərinin icrasına məsuliyyətlə yanaşmaqla vergiləri vaxtında və tam həcmdə yerinə yetirəcəyinə əmindirlər. Sahibkarlar da öz növbəsində fəaliyyətlərini şəffaf qurmalıdırlar. Şəffaflıq birtərəfli qurulmur, biz qarşılıqlı etimada söykənən etibarlı partnyorluq münasibətlərinin tərəfdarıyıq. Digər tərəfdən, unutmaq lazım deyil ki, vergi orqanları öz fiskal funksiyalarını həyata keçirmək üçün texnoloji imkanlarını daim genişləndirirlər. Ümid edirik ki, sahibkarlar vergi yükünün aşağı salınmasını, nəzarət tədbirlərinin azaldılmasını, hesabatlılığın sadələşdirilməsini və bu islahatların ölkənin iqtisadi inkişafına verəcəyi töhfəni düzgün qiymətləndirəcəklər.




> Fərqli dövriyyəyə malik və fərqli sahələrdə fəaliyyət göstərən vergi ödəyicilərinə fərdi yanaşma prinsipinin tətbiqi belə ödəyicilərə daha səmərəli xidmətlərin göstərilməsinə, onlarda vergi nəzarəti tədbirlərinin minimallaşdırılmasına, həmin ödəyicilərə münasibətdə vergilərlə bağlı bütün tədbirlərin vahid vergi orqanından, faktiki olaraq "bir pəncərə" prinsipi üzrə həyata keçirilməsinə imkan verir

## Bilik menecmentinə əsaslanan insan resursları

Bununla belə, Vergilər Nazirliyi öz fiskal funksiyalarının uğurla yerinə yetirilməsi, effektiv həyata keçirilməsi üçün texnoloji və inzibati potensialının gücləndirilməsi siyasətini, müasir vergi inzibatçılığında bilik menecmentinin və texnologiyaların rolunun artırılmasına yönəlik islahatları bundan sonra da davam etdirəcəkdir. Müasir dövrdə hər bir ölkənin vergi sisteminin səmərəli fəaliyyəti vergi inzibatçılığının müxtəlif sahələrində informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinə əsaslanan bilik menecmentinin tətbiqini obyektiv zərurətə çevirib. Bilik menecmentinin tətbiqi vergi orqanları və vergi ödəyicilərinin risklərinin müəyyənləşdirilməsi və idarə edilməsi baxımından yeni imkanlar açır. Bilik menecmenti qeyri-maddi aktivlərin dəyərlərə çevrilməsinə imkan yaradan ən müasir idarəetmə sahəsi olmaqla verilənlərin məlumatlara, məlumatların biliklərə çevrilməsi, biliklər əsasında düzgün idarəetmə qərarlarının verilməsi və dəyərlərin əldə edilməsi məqsədilə istifadə olunur. İnnovativ yanaşmalar, informasiya texnologiyaları təməlli bilik menecmentinin tətbiqi nəticəsində təşkilatın intellektual və texnoloji kapitalı artır, insanların bilikləri və təşkilatçılıq mədəniyyəti, strukturların fəaliyyətləri və texnologiyalar bir-biri ilə birləşərək səmərəli işləyir, risklər minimallaşdırılır. Bununla da daha az xərclə vergi öhdəliklərinə əməl edilməsi təmin olunur.

Vergilər Nazirliyi insan resurslarının təkmilləşdirilməsi, peşəkar kadr hazırlığının daha yüksək səviyyəyə qaldırılması məsələsinə xüsusi diqqətlə yanaşır. 2017-ci ildə bu məsələ milli vergi sistemində prioritet fəaliyyət istiqaməti olacaq. Qarşıda duran hədəf və məqsədlərin həyata keçirilməsində aparıcı qüvvə məhz analitik düşüncəyə, müvafiq bilik və bacarıqlara sahib olan insan resurslarıdır. Bu məqsədlə Avropa İttifaqının Qonşuluq Siyasəti çərçivəsində «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» tvinninq layihəsi reallaşdırılıb. Fransa və İspaniyadan olan tərəfdaşlarımızla birlikdə innovativ yanaşmaları olan, yeni baxışlara malik menecer qrupları formalaşdırılıb və artıq onlar yeni vergi siyasətinin həyata keçirilməsində mühüm rol oynayırlar.

Bundan başqa, vergi xidməti əməkdaşlarının ümumi hazırlığının artırılması məqsədilə sertifikatlaşdırma proqramları icra olunur. Bu proqram müxtəlif səviyyəli sertifikatların əldə edilməsi üçün təlim və imtahandan ibarətdir və vergi işçisinin cari hazırlığını, vergi sahəsində bilik və bacarıqlarını daim artırmaq üçün stimuldur. Qarşıdakı illərdə kadrların müvafiq vakansiyalara təyinatında və irəliləməsində bütün bunlar əsas meyar kimi götürüləcəkdir.

Vergi xidmətinin insan resurslarının inkişaf etdirilməsində Vergilər Nazirliyinin Tədris Mərkəzinin mühüm rolu var. Beynəlxalq Antikorrupsiya Akademiyası ilə imzalanmış Anlaşma Memorandumuna əsasən, korrupsiya ilə mübarizə sahəsində regional mərkəz hesab edilən Vergilər Nazirliyinin Tədris Mərkəzində hər il yüzlərlə vergi əməkdaşı müxtəlif təkmilləşdirmə kursları keçir, yeni bilik və bacarıqlara yiyələnirlər.

Milli vergi sistemində beynəlxalq təcrübənin tətbiqi sahəsində Vergilər Nazirliyinin Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) ilə əlaqələrini qeyd etmək istərdim. 2002-ci ildən təşkilatın tamhüquqlu üzvü olan Azərbaycan IOTA ilə əlaqələrin dərinləşdirilməsinə, üzv ölkələrin vergi administrasiyalarının mütərəqqi təcrübələrinin öyrənilməsinə və onların milli vergi sistemində tətbiqinə geniş yer verir. Hazırda biz IOTA-ya üzv ölkələrin vergi administrasiyalarında təlim-tədris sahəsində yaxşı təcrübələrin öyrənilməsini və tətbiqini, e-təlim proseslərini yaxından izləyirik. Vergi işçilərinin təlimləndirilməsi və müasir tədris prosesinə cəlb edilməsi 2017-ci ildə prioritet fəaliyyətimizə daxildir. E-təlimlə bağlı ən son innovasiyaları tətbiq etməyi qarşıya məqsəd qoymuş Azərbaycanın vergi administrasiyası bu sahədə IOTA ilə mövcud olan məhsuldar və konstruktiv əməkdaşlığa böyük önəm verir.

Əminəm ki, vergi xidmətində aparılan islahatlar, vergi qanunvericiliyində tətbiq edilən liberallaşdırma, vergi mühitinin cəlbediciliyinin artırılması üçün həyata keçirilən tədbirlər, vergi yükünün əsaslı şəkildə azaldılması, informasiya texnologiyalarına və bilik menecmentinə əsaslanan vergi inzibatçılığının formalaşdırılması və iqtisadiyyatın tələblərindən irəli gələn vergi menecmenti Azərbaycan iqtisadiyyatının yeni inkişaf yoluna, eləcə də sahibkarlığın inkişafına, ölkəmizin tərəqqisi naminə biznes və vergi orqanlarının səmərəli əməkdaşlığına öz əvəzsiz töhfəsini verəcəkdir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Yanvar ayında Azərbaycanda **5 milyard 233,1 milyon** manatlıq ümumi daxili məhsul istehsal edilib.
- Cari ilin yanvarında əsas kapitala **954,2 milyon** manat məbləğində vəsait yönəldilib.
- Yanvarda Azərbaycanda **3 milyon 371,6 min** ton xam neft (qaz kondensatı daxil olmaqla) və **2 milyard 493,2 milyon** kubmetr təbii qaz hasil olunub.
- Bu ilin ilk ayında ölkə sənayesinin qeyri-neft sektorunda məhsul istehsalı **13%** artıb, neft sektorunda isə **1%** azalıb.
- 2016-cı ildə Azərbaycana gəlmiş əcnəbi turistlərin sayı əvvəlki illə müqayisədə **12,1%** artaraq **2 milyon 248,8 min** nəfər olub.
- İran tərəfdən Azərbaycan iqtisadiyyatına ümumilikdə **2,7 milyard** ABŞ dolları investisiya yatırılıb.
- Azərbaycanda «Maliyyə sektorunun müasirləşdirilməsi layihəsi»nin ikinci fazası İsveçrə hökuməti tərəfindən ayrılmış **3 milyon** dollar məbləğində qrant hesabına Dünya Bankı tərəfindən 2017-2020-ci illər ərzində icra ediləcək.
- «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-nin gəmiləri ilə daşınan yüklərin həcmi **58%** artıb.

VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

"Vergi ödeyicilerinin 2017-ci il 1 yanvar tarixine mövcud olan vergi borclarının tenzimlenmesi haqqında" Azerbaycan Respublikasının Qanununa esasen, vergilerin Azerbaycan Respublikasının Vergi Mecellesi ile müeyyen edilmiş müddetde ödenilmemesine göre hesablanmış faizler üzre 2017-ci il 1 yanvar tarixine vergi orqanlarındakı şexsi hesab vereqelerinde mövcud olan borclar, elece de vergi orqanları terefinden Vergi Mecellesinin 58.7 maddesine esasen vergi ödeyicilerine tetbiq edilen maliyye sanksiyaları üzre yaranmış, 2017-ci ilin 1 yanvar tarixine vergi orqanlarındakı şexsi hesab vereqlerinde mövcud olan borclar tamamile silinmişdir.

Fevral ayının 1-den etibaren vergi ödeyicilerine tetbiq edilmiş diger maliyye sanksiyaları üzre yaranmış vergi borcları ise aşağıdakı şertlerle siline biler:

- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-fevral ayları ərzində həmin maliyyə sanksiyalarının 50 faizi ödənilərsə, qalan 50 faizi silinir;**
- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-mart ayları ərzində həmin maliyyə sanksiyalarının 70 faizi ödənilərsə, qalan 30 faizi silinir.**

**Maliyyə sanksiyasının məbləğini 143490 büdcə təsnifatı kodu üzrə ödəməyiniz xahiş olunur**

Əlave melumat almaq isteyen vergi ödeyicileri Vergiler Nazirliyinin 195 Çağrı Merkezine, nazirliyin resmi internet saytına (www.taxes.gov.az), vergi ödeyicilerine xidmet merkezlerine, yaxud qeydiyyatda olduqları vergi orqanlarına müraciet ede bilerler.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Vergilər naziri Gədəbəydə vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə yardım göstərirlər.

Fevralın 24-də vergilər naziri Fazil Məmmədov Gədəbəy, Şəmkir, Tovuz, Ağstafa və Qazax rayonlarından olan vətəndaşları qəbul edib. Qəbulda Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, vergilərin hesablanması, ödənilməsi, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarında işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətləri dinlənilib.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunub, müraciətlərin bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razılıqlarını bildiriblər.

# Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması

**Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 20 fevral tarixli fərmanı ilə ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən ölkə ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması qaydası təsdiq edilib.**

Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti departamentinin baş DVM-i İlqar Xəlilov bildirib ki, aksizli mallara, ərzaq məhsullarına, dərman preparatları və tibbi ləvazimatlara, ölkə daxilində satışı ƏDV-dən azad edilən mallara, çərçivəyə salınmamış, emal edilməmiş və ya çeşidlənməmiş qiymətli daşlara, külçə şəklində qiymətli metallara, nəqliyyat vasitələri və onların ehtiyat hissələrinə bu qayda şamil edilmir: «Qayda bir elektron vergi hesab-fakturası üzrə malların dəyəri (ƏDV ilə birlikdə) 100 manatdan çox olduğu hallarda tətbiq edilir. ƏDV-nin alıcıya qaytarılması nağd ödəniş və ya bank kartına (və ya hesabına) köçürmə yolu ilə həyata keçirilir. Operatorun göstərdiyi xidmətlərə görə alıcıya ödəniləcək ƏDV məbləğindən 20 faiz həcmində xidmət haqqı tutulur. Ticarət festivalı dövründə alınmış mallara görə ödənilmiş ƏDV-ni həmin malların alındığı gün ərzində müvəkkil bank geri qaytarır. ƏDV-nin malların alındığı gündən sonrakı günlərdə qaytarılmasına isə yol verilmir».

Qeyd olunub ki, ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərtilə satış həyata keçirmək üçün vergi ödəyicilərinin qeydiyyatı Vergilər Nazirliyi tərəfindən Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə müəyyən edilmiş qaydada aparılır. Ticarət festivalı dövründə alıcı aldığı malların dəyərini ödəmək məqsədilə ödəniş nöqtəsinə yaxınlaşdıqda satıcı ondan ƏDV-nin qaytarılması hüququndan istifadə etmək barədə istəyinin olub-olmadığını dəqiqləşdirir və qaydanın tələbləri barədə ümumi məlumat verir: «Alıcı əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduqda satıcı ona qaydanın tələblərindən əlavə, «Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması qaydası»nın tələbləri barədə ümumi məlumat verir. Alıcı əcnəbi və ya vətəndaşlığı olmayan şəxs seçiminə uyğun olaraq aldığı mallara görə ödənilmiş ƏDV-nin qaytarılmasını bu qaydalardan birinin tələbləri çərçivəsində tələb edə bilər».

Alıcı tərəfindən ƏDV-nin qaytarılması hüququndan istifadə etmək istəyi bildirildikdən sonra satıcı alıcı haqqında məlumatları özündə əks etdirən elektron vergi hesab-fakturasını (e-VHF-ni) Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalında elektron vergi hesab-fakturası sistemi vasitəsilə tərtib edir və həmin məlumatları real vaxt rejimində vahid məlumat bazasına ötürür: «Alıcının ticarət festivalı dövründə aldığı mallar üzrə ödənilmiş ƏDV-nin qaytarılması məqsədilə ƏDV köşkündə müəyyən olunmuş ardıcıllıqla mallara dair e-VHF ƏDV köşkündə vergi orqanının əməkdaşına təqdim edilir, e-VHF-nin məlumatları vergi orqanı tərəfindən vahid məlumat bazasında eyniləşdirildikdən sonra avtomatik risk qiymətləndirməsi aparılır; risk qiymətləndirməsinin nəticələri əsasında mallara vergi orqanının əməkdaşı tərəfindən baxılmalı olub-olmadığı açıqlanır. Yoxlamanın nəticələrinə uyğun olaraq alıcıya qaytarılacaq ƏDV məbləği barədə alıcının təqdim etdiyi e-VHF-də təsdiq qeydi aparılır, qeyd möhürlənib alıcıya təqdim olunur və vahid məlumat bazasında e-VHF təsdiq edilməklə bu barədə məlumat real vaxt rejimində müvəkkil banka ötürülür. Müvəkkil bank vergi orqanı tərəfindən möhürlə təsdiq olunmuş e-VHF-yə əsasən qaytarılmalı olan ƏDV məbləğini alıcının istəyinə uyğun olaraq müəyyən edilmiş müddətdə milli valyutada nağd ödəniş və ya 10 iş günündən gec olmayaraq milli valyutada (əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə münasibətdə isə milli və ya xarici valyutada) bank kartına (və ya hesabına) köçürmə qaydasında qaytarır».

Müvəkkil bank ticarət festivalı dövründə bu qaydaya əsasən qaytarılmış ƏDV məbləği barədə məlumatı nəzərdə tutulmuş müddət başa çatdıqdan sonra 5 iş günü müddətində Vergilər Nazirliyinə, həmçinin Mədəniyyət və Turizm Nazirliyinə təqdim edir.

Vergilər Nazirliyi nəzərdə tutulan məbləğə dair rəyini müddət başa çatdıqdan sonra 5 iş günü müddətində Maliyyə Nazirliyinə təqdim edir. Maliyyə Nazirliyi isə nəzərdə tutulmuş rəy daxil olduqdan sonra 3 iş günü müddətində həmin məbləğin müvəkkil banka köçürülməsini Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə daxil olan ƏDV üzrə faktiki mədaxilin həmin məbləğ həddində azaldılması hesabına təmin edir.

İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qalib Bayramovun rəyinə əsasən, ticarət festivallarının keçirilməsi ölkədə turizmin inkişafı ilə bağlı atılmış çox önəmli bir addımdır: «Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi»ndə də göstərilən bu tip festivallar ölkəyə cəlb edilmiş turistlərin daha çox vəsait xərcləməsinə hesablanıb. Əslində, ticarət festivalları ticarətdən çox əyləncə, şou məqsədi daşıyır, turistlərin əyləndirilməsinə, onların vaxtlarının daha maraqlı, daha şən keçməsinə yönəldilir. Bu mənada, ticarət festivalları dövründə ƏDV-nin qaytarılması «Tax free» sistemindən fərqlənir. Məsələn, ticarət festivallarında alıcıya fərq qoyulmur: o, Azərbaycan vətəndaşı da ola bilər, əcnəbi də. «Tax free»də isə ƏDV-nin qaytarılması yalnız əcnəbi turistlərə şamil edilir. Daha bir fərq ondan ibarətdir ki, «Tax-free» sistemində ƏDV qaytarılan minimum məbləğ kimi 300 manat nəzərdə tutulursa, ticarət festivalları zaman bu məbləğ daha aşağı - 100 manat məbləğində müəyyənləşdirilib».

Bildirilib ki, ticarət festivallarının digər bir özəlliyi ondan ibarətdir ki, Vergilər Nazirliyi ticarət festivalları ilə bağlı atacağı addımları, o cümlədən festivallar dövründə ƏDV-nin qaytarılması şərtilə satış həyata keçirmək üçün vergi ödəyicilərinin qeydiyyatının aparılmasını Mədəniyyət və Turizm Nazirliyi ilə razılaşdıraraq birgə qərar verəcək: «Məqsəd ticarət festivallarını turistlər üçün daha maraqlı etmək, bu festivallarda əcnəbilər üçün ekzotik və qeyri-adi təsir bağışlayan məhsulların, eyni zamanda Azərbaycan mədəniyyətini, tarixini əks etdirən malların satışını həyata keçirməkdir».

**ƏDV-nin qaytarılması şərtilə satış həyata keçirmək üçün vergi ödəyicilərinin qeydiyyatı Vergilər Nazirliyi tərəfindən Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə müəyyən edilmiş qaydada aparılır**

**Fəxriyyə İKRAMQIZI**

# Strateji yol xəritələrində vergi ilə bağlı hədəflər

**Azərbaycanın perspektiv inkişaf istiqamətlərini müəyyənləşdirib həyata keçirilməsini təmin etmək məqsədilə Prezident İlham Əliyevin imzaladığı «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında» 2016-cı il 6 dekabr tarixli fərmana əsasən, 12 istiqamətdə Strateji Yol Xəritəsi təsdiq olunub. Yol xəritələri ilə bağlı Tədbirlər Planında Vergilər Nazirliyi qarşısında da bir sıra mühüm vəzifələr müəyyən edilib.**

### Səmərəli vergi sisteminin təşviqi

«Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»ndə əlverişli biznes mühitinin inkişaf etdirilməsi və səmərəli vergi sisteminin təşviqi başlıca məqsəd kimi müəyyənləşib. 2017-ci ildə Azərbaycanda büdcənin hazırlanması mexanizminin ortamüddətli xərclər çərçivəsinə uyğun təkmilləşdirilməsi nəzərdə tutulur. Bu məqsədlə fiskal intizamın təmin edilməsi, dövlət büdcəsi göstəricilərinin proqnozlaşdırılması və büdcə resurslarının sektorlararası və sektorlardaxili düzgün bölüşdürülməsi qarşıya məqsəd qoyulub. Həmin məqsədlərin gerçəkləşməsində aparılan vergi siyasəti də ölkədə gedən iqtisadi proseslərlə ahəngdar şəkildə uyğunlaşdırılır.

Yeni strateji siyasət şəffaflığı artırmaq, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı inamı gücləndirmək, eləcə də davamlı iqtisadi inkişafın təşviqində vergi potensialını müəyyən etmək üçün vergi sistemi və inzibatçılığının təkmilləşdirilməsi sahəsində islahatların davam etdirilməsini nəzərdə tutur. Bu hədəflərə doğru irəliləmək məqsədilə digər ölkələrdə şirkətlərin vergi yükü və bütün əməliyyatlar üçün dəyər zənciri boyunca vergilər nəzərə alınaraq, ədalətli vergi səviyyəsi qiymətləndiriləcək. Sahibkarlıq subyektlərinə lazım olan maliyyə öhdəliyinin proqnozlaşdırılması üçün ölkənin vergi öhdəliklərinin aydın müəyyənləşdirilməsi və proqnozlaşdırılması sahəsində mümkün islahatlar təhlil ediləcək. İslahatlar çərçivəsində sahibkarlıq subyektlərinin rəsmi qeydiyyatını təşviq etmək və vergi bazasını genişləndirmək məqsədilə vergi əməletməsi xərclərinin azaldılması təşəbbüsləri nəzərdən keçiriləcək.

### Biznesin asanlaşdırılması və beynəlxalq reytinqlərdə mövqelərin yaxşılaşdırılması

İnvestisiyanın cəlb edilməsi üçün ən vacib istiqamətlərdən biri təkmil, proqnozlaşdırıla bilən və stabil biznes mühitinin olmasıdır. Ölkənin investisiya imicini formalaşdıran faktorlardan ən əsası beynəlxalq reytinqlərdə ölkənin mövqeyidir. Bu reytinqlər investorlar üçün əhəmiyyətli olan əksər faktorlar üzrə göstəriciləri ehtiva edir və məhz həmin reytinqlər əsasında investor ölkə haqqında fikir formalaşdırılır.

Beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması üçün bir neçə istiqamətdə fəaliyyətlər davam etdiriləcəkdir. Biznesin fəaliyyətinin asanlığının əsas göstəricisi Dünya Bankı Qrupu tərəfindən hər il qiymətləndirilən, özəl sektorun fəaliyyətinə yardım edən qayda və normalara əsaslanan «Doing Business» hesabatıdır. Bu hesabata əsasən, son illərdə Azərbaycanda biznesin təşkili asanlaşıb, aparılan islahatlar və təkmilləşdirmələr, o cümlədən sahibkarlıq subyektlərinin fəaliyyətə başlaması üçün «bir pəncərə» sisteminin tətbiqi, şirkətlərdə möhürdən istifadə tələbinin aradan qaldırılması, vergi və sosial sığorta ödənişləri üzrə elektron sistemin inkişaf etdirilməsi və digər müvafiq islahat tədbirləri nəticəsində respublikamız 2017-ci ildə dünyada 189 ölkə arasında ilk 50-likdə qərarlaşıb.

### Xarici investisiya strategiyasının həyata keçirilməsi

İnvestisiyanın təşviqi ölkədə həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindən biridir və hazırkı iqtisadi tədbirlərdə xarici investisiyaların cəlb edilməsinin stimullaşdırılması əsas yer tutur. Bu sahədə investorlara dəstək üçün iş icazələrinin alınması və sahibkarlıq subyektlərinin qeydiyyatı, potensial biznes tərəfdaşları ilə əlaqələrin qurulması, məqsədyönlü subsidiyalar yolu ilə layihələrin maliyyələşdirilməsi və digər tədbirlər prioritet hesab olunur. Azərbaycanda iqtisadi artım və inkişaf hədəflərinə uyğun xarici investisiyaların cəlb edilməsi və həcminin artırılması istiqamətində mühüm təşəbbüslərin artırılması diqqət mərkəzindədir.

Strategiyaya əsasən, düzgün idarəetmə strukturunun yaradılması və stimulların (tənzimləmə, maliyyə və ya vergi sahəsində) müəyyənləşdirilməsi Azərbaycanın xarici investisiya cəlb etməsinə yardım göstərə bilər. Tənzimləyici, maliyyə və vergi stimulları ətrafında qurulmuş dövlət siyasətinin potensial təsirləri əlavə dəyərin yaradılmasının asanlaşdırılmasına təkan verə bilər.

Potensial stimulların formatı 3 əsas sahədə qruplaşdırılmaqla geniş diapazonu əhatə edir:

**1.** Tənzimləyici stimullar xarici investorlara yerli şirkətlər üçün də mövcud olan əmlak üzərində mülkiyyət hüququ verilməsi, valyuta nəzarəti məhdudiyyəti və ya kapital tələblərinin azaldılması, əcnəbi işçilərin işə qəbulu kimi bərabər təminatların həllini əhatə edir.

**2.** Maliyyə stimulları yığım və vergidən azadolma üzrə xərcləri, elmi-tədqiqat kreditlərini, kapitala vergi güzəştlərini, rüsumlardan güzəştləri nəzərdə tutur.

**3.** Vergi güzəştləri müəyyən müddətə və müəyyən şərtlər əsasında gəlirlərdən bütün tutulmaları, korporativ və yerli vergiləri əhatə edir.

İqtisadi inkişafı təmin etmək üçün artıq Azərbaycanda bu alətlər tətbiq edilir. Gələcək illərdə stimullar davamlı olaraq yenidən nəzərdən keçiriləcək və təkmilləşdiriləcək.

### Vergilər Nazirliyinin icraçı olduğu Tədbirlər Planının əsas istiqamətləri

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayevanın bildirdiyinə görə, «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri»ndə Vergilər Nazirliyi 5 istiqamət üzrə əsas icraçı, 9 strateji yol xəritəsində 34 istiqamət üzrə isə digər icraçı qismində müəyyən edilib. Strateji yol xəritələri üzrə Vergilər Nazirliyinin icraçı olduğu Tədbirlər Planında əsas istiqamətlər büdcə-fiskal siyasətin həyata keçirilməsi və ortamüddətli xərclər çərçivəsinin yaradılması, kiçik və orta sahibkarlığın inkişafında stimullaşdırıcı vasitələrin tətbiqi, biznesin asanlaşdırılması və beynəlxalq reytinqlərdə mövqelərin yaxşılaşdırılması, səmərəli vergi sisteminin təşviq edilməsi, xarici investisiya strategiyasının həyata keçirilməsi, statistika infrastrukturunun təkmilləşdirilməsi ilə bağlıdır. Həmin 5 əsas istiqamətin hər bir altqrupu üzrə nəzərdə tutulan konkret hədəflər də müəyyən olunub. Məsələn, kiçik və orta sahibkarlıq (KOS) səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsində vergi ilə bağlı strateji hədəflər KOS fəaliyyəti üçün biznes mühitinin və tənzimləyici bazanın yaxşılaşdırılması, KOS subyektlərinin fəaliyyətində yoxlama və lisenziyalaşdırma mexanizmlərinin təkmilləşdirilməsi, yoxlamaların optimallaşdırılması və risk dərəcəsi əsasında aparılması, sahibkarlıq sahəsində stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsindən ibarətdir. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsinin strateji hədəflərinə vergi ilə bağlı istiqamətlər kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişafı və istehsalçıların bazarlara çıxışının asanlaşdırılması, bazarın tənzimlənməsi sisteminin təkmilləşdirilməsi və daxili bazardakı ticarət üzrə uçot göstəriciləri ilə bağlı tənzimləmə sisteminin hüquqi əsaslarının təkmilləşdirilməsi aiddir.

### Məqsədə çatmaq üçün daha 34 hədəf...

Vergilər Nazirliyinin müvafiq qurumlarla əlaqəli iştirakı da mühüm əhəmiyyət kəsb edir. Buraya aşağıda göstərilən sahələrə dair strateji yol xəritələrində səmərəli fiskal-vergi siyasətinin həyata keçirilməsi daxildir:

- maliyyə xidmətlərinin inkişafı;
- ağır sənaye və maşınqayırma;
- turizm sənayesi;
- logistika və ticarət;
- mənzil təminatı;
- telekommunikasiya və informasiya texnologiyaları;
- kommunal xidmətlər.

Dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılması, sənaye zonaları, texnopark və sənaye klasterlərinə müxtəlif güzəştlərin tətbiqi, mövcud aktivlərin optimallaşdırılması, rəqabətədavamlı sektorun və Azərbaycan üzərindən ticarət həcminin artırılması üçün əlverişli mühitin yaradılması, yerli və əcnəbi turistlər üçün regional turizm növlərinin inkişaf etdirilməsi və turizm zonalarının yaradılmasının sürətləndirilməsi tədbirləri çərçivəsində vergi təşviqi, logistika və ticarət sahəsində mühüm hərəkətverici mexanizmlərin hazırlanması, əhalinin mənzil şəraitinin yaxşılaşdırılması və mənzil siyasətinə dəstək məqsədilə bu sahədə tikinti xərclərinin optimallaşdırılması, vergi azadolmaları, biznesin inkişafı üçün stimullaşdırıcı əlavə vasitələrin təmin olunması həyata keçiriləcək ümumi vergi siyasətinə aid məsələlərdir. İdarəetmə strukturlarının təkmilləşdirilməsi və İKT-nin gücləndirilməsi, hökumətin və sosial mühitin rəqəmsallaşdırılması, sahibkarlıq subyektlərinin fəaliyyətində məhsuldarlığın və əməliyyat səmərəliliyinin artırılması ilə bağlı siyasətin həyata keçirilməsində vergi tənzimləmələrindən istifadə olunacaq.

### 2017-ci il üçün əsas planlar...

Strateji Yol Xəritəsinə uyğun olaraq səmərəli vergi sisteminin təşviqi, kiçik və orta sahibkarlıq sahəsində stimullaşdırıcı vergi islahatlarının davamı ilə bağlı illik plana əsasən, hüquqi şəxslərin dövlət qeydiyyatının asanlaşdırılması, xarici investisiyalı müəssisələrin elektron qeydiyyatı ilə bağlı qanunvericilikdə dəyişikliklərin edilməsi, yeni qeydiyyatdan keçən vergi ödəyicilərinin fəaliyyət istiqamətləri üzrə məlumatlandırma mexanizmlərinin işlənib hazırlanması nəzərdə tutulur. Vergi ödəyicilərinə xidmət sahəsində əsas planlar beynəlxalq standartlara uyğun elektron xidmətlərin göstərilməsi və dairəsinin genişləndirilməsi, BTP vasitəsilə göndərilən vergi bəyannamələrinin İnternet Vergi İdarəsi vasitəsilə təqdim edilməsi imkanının yaradılması, avtomatlaşdırılmış məlumat bazası əsasında bəyannamələrin vergi orqanı tərəfindən hazırlanmasını əhatə edir.

**Elbrus CƏFƏRLİ**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Sadələşdirilmiş vergi

***Sadələşdirilmiş vergi ödəyicisiyəm və iaşə sahəsində fəaliyyət göstərirəm. İllik dövriyyəm 100.000 manata qədərdir. Əmək müqaviləsi bağladığım işçilərə əmək haqlarını nağd qaydada ödəyə bilərəmmi?***

«Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsinə görə, bu Qanunun 3.5-ci maddəsinin müddəaları nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği otuz min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği on beş min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.

Qanunun 3.4.4-cü maddəsinə görə, əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əmək haqları (o cümlədən işəgötürən tərəfindən ödənilən, qanunvericiliklə müəyyən edilmiş digər ödənişlər), pensiya, təqaüd, maddi yardım, müavinətlər (o cümlədən birdəfəlik müavinətlər), kompensasiyalar və təzminatlar yalnız nağdsız qaydada həyata keçirilir.

**Qeyd olunanlara əsasən:**

Əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatadək olan iaşə sahəsində fəaliyyət göstərən vergi ödəyicisi tərəfindən əməkhaqları təqvim ayı ərzində 15.000 manatadək hədd daxilində nağd qaydada ödənilə bilər.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Aksiz markalarına həsr olunmuş forum

Almaniyanın paytaxtı Berlin şəhərində «Reconnaissance International Limited» şirkətinin təşkilatçılığı ilə aksiz markalarına həsr edilmiş 7-ci forum keçirilmişdir. Forumun əsas məqsədi aksiz və gömrük sahəsində fəaliyyət göstərən dövlət orqanları, istintaq və hüquq-mühafizə orqanları, tütün məmulatları və alkoqollu içkilərin istehsalçıları və distribütorları, qiymətli kağızların emitentləri, çatdırılma zəncirinin mütəxəssisləri və inteqratorları, eyniləşdirmə və seriyalaşdırma texnologiyalarının təchizatçıları və digər aidiyyəti qrupların nümayəndələrini bir yerə toplamaqla aksiz markaları sahəsində son yenilikləri müzakirə etmək və ən yaxşı təcrübələri öyrənmək olmuşdur. Forumda ABŞ, Almaniya, Avstriya, Belçika, Belarus, Bolqarıstan, Böyük Britaniya, Braziliya, Çexiya, ÇXR, Estoniya, Filippin, Fransa, Hindistan, İrlandiya, İspaniya, İsveçrə, İtaliya, Kanada, Keniya, Kolumbiya, Macarıstan, Rusiya və digər ölkələrin dövlət və şirkət nümayəndələri iştirak etmişlər.

Forumda Azərbaycanı Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktoru, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Zaur Fətizadənin rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir.

## VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

**2016-cı hesabat ilinin yekunlarına görə:**

- Gəlir vergisinin ödəyiciləri olan rezident və qeyri rezident fiziki şəxslər gəlir vergisinin bəyannaməsini;
- Mənfəət vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident hüquqi şəxslər mənfəət vergisinin bəyannaməsini;
- Əmlak vergisinin ödəyicisi olan müəssisələr əmlak vergisinin bəyannaməsini

cari ilin **mart ayının 31-dən gec olmayaraq** vergi orqanına təqdim etməyə, hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməyə borcludurlar.

**Bildiririk ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 57-ci, 58-ci və 59-cu maddələrinə əsasən:**

- vergi hesabatını və vergi öhdəliyinin yaranmaması barədə arayışı müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının qərarına əsasən **40 manat** məbləğində;

- büdcəyə çatası vergi məbləğini hesabatı təqdim etməməklə yayındırdıqda, vergi ödəyicisinə yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) **50 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Vergi qanunla müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün, ancaq bir ildən çox olmamaqla vergi ödəyicisindən ödənilməmiş vergi məbləğinin **0,1 faizi** miqdarında faiz tutulur.

Vergi öhdəlikləri vaxtında yerinə yetirməyi tövsiyə edirik.

Əlavə məlumat üçün "195-1" Çağrı Mərkəzinə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin mart və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin mart və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

# Partnyor vergi ödəyicilərinə bildirişlər təqdim olunub

Vergilər Nazirliyi yanında Bakı şəhəri Lokal Gəlirlər Departamentində nazirliyin rəhbər vəzifəli şəxslərinin şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri ilə görüşü keçirilib.



Tədbirdə çıxış edən vergilər nazirinin müşaviri, Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov bildirib ki, dövlət başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamı vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması məqsədilə vergi sistemində islahatların davam etdirilməsini, ölkədə könüllü əməletmə səviyyəsinin yüksəldilməsinə nail olunmasını nəzərdə tutur. 2017-ci il yanvar ayının 1-dən qüvvəyə minmiş «Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanunun tətbiqi, vergi inzibatçılığının təkmilləşdirilməsi və təşkilati struktur dəyişikliklərinin aparılması ölkənin iqtisadi həyatında mühüm hadisələrdən hesab oluna bilər: «Ötən ilin sonunda vergi məsələləri ilə bağlı çox mühüm qanunlar qəbul edildi. «Vergi borclarının tənzimlənməsi haqqında», «Nağdsız hesablaşmalar haqqında» qanunlar qüvvəyə mindi, «Elektron ticarət haqqında» Qanuna dəyişikliklər olundu. «Vergi borclarının tənzimlənməsi haqqında» Qanun ümumilikdə 79 min 265 vergi ödəyicisini, 1 milyard 85 milyon manat məbləğində vergi borclarını əhatə etməlidir. Bu hüquqdan birinci mərhələdə 69 min vergi ödəyicisi yararlandı, 2017-ci il yanvarın 1-nə 727 milyon 274,2 min manat məbləğində borc qeyd-şərtsiz silindi. İkinci mərhələdə isə 26 min 798 vergi ödəyicisinin borcunun bir hissəsinin dövlət büdcəsinə ödənilməsindən sonra yerdə qalan hissəsi silinə bilər».

Sonra Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin şöbə rəhbəri Hacı Qasımov «Şəffaf vergi partnyorluğu layihəsi və onun üstünlükləri» mövzusunda təqdimatla çıxış edərək bildirib ki, «Şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri ilə işlərin təşkili Qaydaları» vergi ödəyicilərinin müəyyən edilməsi meyarları, onlara göstəriləcək xidmətləri və digər məsələlər üzrə prosedurları tənzimləyir: «Yaşıl dəhliz»ə həm Vergilər Nazirliyinin, həm də vergi ödəyicisinin təşəbbüsü ilə qoşulmaq mümkündür. Vergi ödəyicisi partnyor vergi ödəyicisi statusuna malik olmaq üçün bir sıra meyarlara cavab verməlidir. Belə ödəyicilər vergi hesabatlarını vaxtlı-vaxtında təqdim etməli, vergiləri tam həcmdə və vaxtında ödəməli, işçilərinin sayını və onlara verilən əmək haqlarını düzgün bəyan etməli, gücləndirilmiş elektron imzaya sahib olmalı, mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına uyğun, yazışmaları isə əsasən elektron şəkildə aparmalıdırlar».

Bildirilib ki, partnyor ödəyicilərə, ərazi məhdudiyyəti nəzərə alınmadan, «Yaşıl dəhliz» prinsipi əsasında xidmət göstəriləcək. Burada bir sıra ənənəvi xidmətlərlə yanaşı, İKT-nin son nailiyyətlərinə əsaslanan innovativ xidmətlərin də təqdim edilməsi nəzərdə tutulur: «Belə xidmətlərə videobağlantılar, çağrı və xidmət mərkəzlərində növbəsiz və sürətli xidmətlərin göstərilməsi, partnyor ödəyicilərin müraciəti əsasında onlar üçün «dəyirmi masa», seminar və konfransların təşkili, xüsusi təlim proqramlarının hazırlanması və s. aiddir. Koordinasiya işlərinin təşkili məqsədilə hər bir partnyor ödəyici üçün aidiyyəti vergi strukturundan kuratorlar ayrılacaq. Partnyor vergi ödəyicilərinin siyahısı, - onların razılığı əsasında, - mütəmadi olaraq açıqlanacaq. Bu, digər vergi ödəyiciləri üçün də nümunə olacaq və onlar intizamlı vergi ödəyicisi olmağın üstünlüklərini aydın şəkildə görə biləcəklər. «Yaşıl dəhliz» layihəsinin tətbiqi ölkədə investisiya və biznes mühitinin yaxşılaşdırılmasına, könüllü vergi əməletməsinin artmasına və cəmiyyətdə vergi mədəniyyətinin yüksəlməsinə səbəb olacaq».

Qeyd edilib ki, bu günə qədər partnyor vergi ödəyicisi statusunu əldə etmək üçün vergi orqanlarına 600-ə yaxın müraciət daxil olub. Müvafiq araşdırmalar aparıldıqdan sonra 443 vergi ödəyicisinin müraciəti müsbət həll olunub ki, onlardan da 194-ü Bakı şəhərində fəaliyyət göstərir.

Sonra bir qrup vergi ödəyicisinə partnyor vergi ödəyicisi statusunu təsdiqləyən bildirişlər təqdim edilib.

Bu addımın atılması zamanın tələbindən irəli gəlir.

## Partnyor vergi ödəyiciləri öz təəssüratlarını bölüşürlər:

***«Azərbaycan Supermarket» MMC-nin vergi departamentinin direktoru Azad İsmayılov:*** «Hesab edirəm ki, iqtisadi sahədə islahatların aparılması, sahibkarlığa dövlət dəstəyi son nəticədə vergi uçotunun şəffaflaşmasına gətirib çıxaracaq. Şirkətimiz bir neçə ildir ki, pərakəndə satış sektorunda fəaliyyət göstərir. İşə başladığımız andan vergi uçotunun şəffaf aparılması əsas məqsədlərdən biri kimi qarşımıza qoyulmuşdur. Vergilər Nazirliyinin bu addımı təqdirəlayiqdir, çünki şəffaf vergi ödəyicilərinə xüsusi qaydada yanaşılır və onlara göstərilən xidmətlər digərlərindən xeyli fərqlənir. Düşünürəm ki, bu, zamanın tələbindən irəli gəlir. Bu cür tədbirlər şəffaf vergi ödəyicilərinin sayının artmasına gətirib çıxaracaq. Bütün cəmiyyətlərdə vergi öhdəliklərinin vaxtında yerinə yetirilməsi həm şərəfli işdir, həm də vergi ödəyicisinin fəaliyyətinin əsas prinsiplərindən biridir. Görülən işlərə görə Vergilər Nazirliyinə təşəkkürümü bildirirəm».

***«Deloitte Azərbaycan» şirkətinin Vergi və hüquq departamentinin direktoru Emil Qarayev:*** «Vergi və audit sahəsində fəaliyyət göstərən şirkət olaraq deyə bilərik ki, son zamanlar aparılan tədbirlər nəticəsində ölkədə uçotu şəffaf aparmağa meyilli olan şirkətlərin sayı artmaqdadır. Azərbaycanda işə başladığımız gündən ölkə qanunlarına hörmət edən tərəfdaş və müştərilərlə səmərəli işləmişik və bu istiqamətdə fəaliyyətimizi davam etdiririk. Hesab edirik ki, həyata keçirilən islahatlar və xüsusi yanaşmalar ölkədə mühasibat və vergi uçotunun, maliyyə intizamının gücləndirilməsinə gətirib çıxaracaq».

***«Yapı Kredi Bank Azərbaycan»nın idarə heyətinin sədri Cenk Yüksəl:*** «Azərbaycanda vergi ödəyicisi olaraq bu qiymətləndirməni görmək bizi çox sevindirir. Bütün cəmiyyətlərdə dəyişikliklər həmişə önəmli olub və bu gün partnyor vergi ödəyicilərinin seçilməsi də həmin dəyişikliklərin bir hissəsidir. İnanıram ki, bu sistemin üstünlüklərinə bələd olduqdan sonra partnyor vergi ödəyicisi olmaq üçün müraciət edənlərin sayı xeyli artacaq və onlar ölkə iqtisadiyyatına daha çox töhfə verəcəklər. Vergilər Nazirliyinin bu innovativ yanaşmasını müsbət qiymətləndirirəm».

***«Zaman sığorta və təkrar sığorta brokeri» şirkətinin nümayəndəsi Ağası Səfərov:*** «Partnyor vergi ödəyicisi bildirişi almağımızdan çox məmnunuq. Biz bunu çox müsbət qarşılayırıq. Tərəfdaşlığın daha güclü davam etdirilməsi üçün üzərimizə düşən bütün vəzifələri layiqincə yerinə yetirməyə hazırıq. Bildiyiniz kimi, partnyor vergi ödəyicisi statusuna malik olmaq üçün qarşıya bir sıra meyarlar qoyulub və bizim də bu meyarlara cavab verməyimiz çox sevindiricidir. Hesab edirəm ki, bu, indiyə kimi vergi sahəsində atılan ən böyük addımlardan biridir və intizamlı vergi ödəyicilərinin sayının artmasına imkan verəcək».

***«AzəriKard» MMC-nin maliyyə-menecment departamentinin direktoru Ceyhun Behbudov:*** «Şəffaf vergi ödəyicisi seçildiyimizə görə Vergilər Nazirliyinə təşəkkür edirik. Partnyor vergi ödəyicisi olaraq təhkim olunmuş kuratora bizi maraqlandıran sualları günün istənilən vaxtı ünvanlaya bilərik. Bu, suallarımıza çevik, operativ şəkildə cavab almağa imkan verəcək. Bizim müraciətlərə digər vergi ödəyiciləri ilə müqayisədə ölkə qanunvericiliyinə uyğun olaraq müəyyən edilmiş müddətdən 3 dəfə tez baxılacaq. Bu da, təbii ki, işimizi xeyli asanlaşdıracaq».

**Aytən NƏBİYEVA**

# Ailə təsərrüfatı qurmaq istəyənlərə yardım göstərilir

**Azərbaycan Prezidenti İlham Əliyevin 7 aprel 2016-cı il tarixli sərəncamına əsasən, aztəminatlı ailələrin özünüməşğulluğunun təmin olunması tədbirləri davam etdirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən özünüməşğulluq proqramı çərçivəsində son məlumata əsasən, artıq 103 ailəyə fərdi təsərrüfatlarını qurmaları üçün aktivlər (mal və materiallar) təqdim olunub.**

Artıq xeyli vaxtdır ki, aztəminatlı ailələrin özünüməşğulluğunun təmin olunması istiqamətində praktiki işlərə başlanılıb. Bununla da aztəminatlı ailələr üçün dayanıqsız passiv sosial təminat tədbirlərindən dayanıqlı aktiv məşğulluq proqramlarına keçidə start verilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, özünüməşğullluq proqramına müvafiq potensialları, əmək qabiliyyətli üzvləri olan aztəminatlı ailələr cəlb edilir və proqramın icrası ünvanlı dövlət sosial yardımı proqramının dayandırılmasını şərtləndirmir. Ona görə də özünüməşğullluq proqramı ilə paralel olaraq, özlərindən asılı olmayan səbəblərdən yoxsulluq vəziyyətində yaşayan, məşğulluq tədbirlərinə cəlb olunmaq üçün potensialları olmayan ailələrin dövlətin sosial yardımları ilə təmin edilməsi prosesi də davam etdirilir.

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayev özünüməşğulluq proqramı çərçivəsində artıq 100 nəfərdən çox işsiz və işaxtaran şəxsə ailə təsərrüfatlarını qurmaları üçün aktivlər verildiyini bildirib: «İlk tədbir cəbhə bölgəsində yerləşən Tərtər rayonunda həyata keçirilib və 11 aztəminatlı ailə biznes imkanlarına yiyələnmələri üçün mal və materiallarla təmin edilib. Laçın rayonu üzrə 12, Hacıqabul rayonu üzrə 8, Ağcabədi rayonu üzrə 10, Beyləqan rayonu üzrə 14, Xocavənd rayonu üzrə 10, Qəbələ rayonu üzrə 9, İsmayıllı rayonu üzrə 13, Göyçay rayonu üzrə 11, Ağsu rayonu üzrə 5 ailənin özünüməşğulluq fəaliyyətinin təşkili üçün aktivlərlə təminatı həyata keçirilib. Proqrama uyğun olaraq, ölkəmizin rayon və şəhərlərində ailələrə fərdi təsərrüfatlarını qurmaları üçün mal və materialların alınıb verilməsi işləri davam etdirilir».

Qeyd olunub ki, özünüməşğulluq proqramı ailələrin fərdi təsərrüfatlarını, fərdi bizneslərini qurmaqla gəlirlərini artırmalarına, kiçik və orta sahibkarlığın inkişafına xidmət edir: «Proqramın icrası çərçivəsində 2016-cı il aprelin 1-dək məşğulluq mərkəzlərində işaxtaran və işsiz kimi qeydiyyatda olan və özünüməşğulluq proqramında iştirak etmək üçün müraciət edən şəxslər seçilərək iki aylıq təlim kurslarına cəlb olunublar. Kursları uğurla başa vuranların hazırladıqları biznes-planların qiymətləndirilməsi prosesi keçirilib. Qiymətləndirmədə iştirakçıların 80 faizinin biznes planları uğurlu hesab edilib və ailə təsərrüfatlarını qurmaları üçün aktivlərlə təmin olunmalarına başlanılıb».

Xatırladaq ki, özünüməşğulluq proqramı çərçivəsində təqribən 1500 ailəyə fərdi təsərrüfatlarının yaradılması üçün mal və materiallar verilməsi, beləliklə, ailə bizneslərinin qurulması yolu ilə onların əmək qabiliyyətli üzvlərinin özünüməşğulluğuna şərait yaradılması nəzərdə tutulub.

**FƏXRİYYƏ**

# Yoxsulluq səviyyəsinin azaldılması prioritet məsələlərdəndir

Son 15 ildə Azərbaycanda yoxsulluğun azaldılması istiqamətində həyata keçirilən kompleks tədbirlər, ölkədə aparılan geniş-miqyaslı islahatlar davamlı sosial-iqtisadi inkişafa səbəb olub və əhalinin həyat səviyyəsi yaxşılaşıb. Belə ki, ölkədəki yoxsulluq səviyyəsi 2001-ci ildəki 49 faizdən 2015-ci ildə 4,9 faizə enib. Yoxsulluq səviyyəsində yaşayan əhalinin xüsusi çəkisi on il ərzində 10 dəfə azalıb. Dünya ölkələrinin 2015-ci il üzrə aidiyyəti statistik göstəricilərinin təhlili Azərbaycanın ən aşağı yoxsulluq göstəricisinə malik az sayda ölkələr sırasında olduğunu deməyə əsas verir. Bu göstərici Macarıstanda 14,5 faiz, Portuqaliyada 19,5 faiz, Rumıniyada 25,4 faiz, Latviyada 22,5 faiz, Litvada 22,2 faiz, Yunanıstanda 21,4 faiz səviyyəsindədir.

2017-ci il yanvarın 1-nə olan məlumata görə, Azərbaycan Respublikasında yoxsulluq səviyyəsi 5,9 faiz təşkil edib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin eksperti Ramil Hüseyn AZƏRTAC-a bildirib ki, dünya iqtisadiyyatında baş verən neqativ proseslər, neftin ucuzlaşması nəticəsində ixracın azalması həm Azərbaycan iqtisadiyyatına, həm də yoxsulluq səviyyəsinə öz təsirini göstərib. Nəticədə 2016-cı ildə yoxsulluq səviyyəsində cüzi artım olsa da, vaxtında görülən qabaqlayıcı tədbirlər nəticə verib. Xüsusən də buğdanın idxalına və satışına, buğda ununun və çörəyin istehsalına və satışına əlavə dəyər vergisinin tətbiqinin dayandırılması, dərman vasitələri bazarının tənzimlənməsi ilə qiymət artımının qarşısının alınması, elektrik enerjisinin və təbii qazın ölkədaxili tariflərinin həssas təbəqənin maraqlarına uyğun olaraq yenidən tənzimlənməsi və bu kimi digər tədbirlər yoxsulluğun qarşısının alınmasında müstəsna rol oynayıb. Hazırda qonşu dövlətlərlə müqayisədə ən aşağı yoxsulluq göstəricisi Azərbaycandadır. Ramil Hüseyn qeyd edib ki, Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi», əsasən, ölkədə əhalinin bütün təbəqələrinin etibarlı ərzaq təminatına nail olunması mexanizmlərini formalaşdıracaq. Bu isə yoxsulluğun azaldılmasına xidmət edəcək.

## vergi təqvimi

| MART | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | 1 | 2 | 3 | 4 | **5** |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | **12** |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | **19** |
| 20 | 21 | 22 | 23 | 24 | 25 | **26** |
| **27** | 28 | 29 | 30 | **31** | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

27 mart - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

31 mart - «1», «2» və «5».

**«1» - Gəlir vergisi:** Gəlir vergisi üzrə hesabat dövrü təqvim ilidir. Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verir və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisini dövlət büdcəsinə ödəyirlər.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi:** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«2» - Mənfəət vergisi:** Mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Mənfəət vergisinin ödəyicisi hesab edilən rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) vergini ödəyir və qeydiyyatda olduğu vergi orqanına bəyannamə təqdim edir. Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə), digər müəssisələr isə dövlət büdcəsinə ödəyirlər.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Müəssisənin əmlak vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Əmlak vergisinin ödəyicisi olan müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir və vergini həmin müddətədək son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) dövlət büdcəsinə ödəyir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi:** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.


## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik Departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik Departamentinə» qeydi olan məktubları göndərməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik Departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik Departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1) zəng etməklə.

Vergilər Nazirliyi


# Yaxşı ənənənin başlanğıcı

## Partnyor vergi ödəyicisi statusu sahibkara göstərilən yüksək xidmətin nümunəsidir

Sumqayıtda 2 saylı Ərazi Vergilər Departamentində partnyor vergi ödəyicisi statusunun verilməsi ilə əlaqədar görüş keçirilib. Departamentin baş direktoru Abbas İsmayılov bildirib ki, sahibkarların hüquqlarının qorunması, vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin daha şəffaf şəkildə qurulması və yüksək səviyyəyə çatdırılması Vergilər Nazirliyi tərəfindən əsas hədəflər kimi müəyyən edilib. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin böyük qismi də məhz vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə, onlara göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsinə yönəldilib. Bu siyasətin tərkib hissəsi kimi, vergi ödəyiciləri üçün «Yaşıl dəhliz» layihəsinin həyata keçirilməsinə başlanılıb. Lahiyənin icrası ilə bağlı təsdiq edilən müvafiq qaydalar şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyicilərinin müəyyən edilməsi meyarlarını, onlara göstəriləcək xidmətləri və digər məsələlər üzrə prosedurları tənzimləyir. «Yaşıl dəhliz»ə qoşulmaq üçün vergi ödəyiciləri Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş meyarları yerinə yetirməklə partnyor vergi ödəyicisi statusuna malik ola bilərlər.

Departamentin Şəffaf vergi partnyorluğu şöbəsinin rəhbəri Fəqan Mürşüdov bildirib ki, 2 Saylı Ərazi Vergilər Departamenti tərəfindən qarşıya qoyulmuş vəzifələrin icrası məqsədilə qeydiyyatda olan 22.389 aktiv vergi ödəyicisinin fəaliyyəti araşdırılıb və vergi bəyannamələrini Vergi Məcəlləsində nəzərdə tutulmuş müddətlərdə təqdim edən, vergiləri tam həcmdə və vaxtında ödəyən və digər meyarlara cavab verən 15 vergi ödəyicisinə partnyor vergi ödəyicisi statusu verilib.

### Yeni status sahibkarlar üçün «Yaşıl dəhliz»ə yol açır...

*Partnyor vergi ödəyicisi statusu almış vergi ödəyiciləri onlara göstərilən bu etimadı necə qiymətləndirirlər?*

***«Qartal» tikinti firmasının rəhbəri Şahin Məmmədov:***
«Vergi partnyoru seçilmək vergi orqanı qarşısında etibarı artırır. Bu ad bizə bir çox üstünlük verəcək. Partnyor vergi ödəyicisi statusu hüquqi baxımdan sahibkar üçün yeni imkanların təmin olunması deməkdir. Vergi nəzarətinin ən sivil və şəffaf formada təşkil olunması və xeyli sərbəstliklər verilməsi bizim üçün həqiqətən «Yaşıl dəhliz»ə yol açır, fəaliyyətimizi irəli aparmağımız üçün yaşıl işıq yandırır. Biz də bu imtiyazlardan səmərəli şəkildə istifadə etməliyik».

***«Basf Kaspian Yapi Kimyasallari Sanayi» MMC-nin rəhbəri Səlcuq Sərkan:***
«Şəffaf vergi ödəyicisi adına layiq görüldüyüm üçün Vergilər Nazirliyinə minnətdaram. Bu, həqiqətən çox sevindirici haldır, fəaliyyətimizə göstərilən etimadın nümunəsidir. Çalışacağam ki, bu etimadı doğruldum. Azərbaycanın inkişafında vergi sisteminin mühüm rolu var. Vergi sahəsində son dövrlər yaxşılığa doğru xeyli dəyişikliklər baş verir, onların əksəriyyəti sahibkarları qane edən və fəaliyyətimizə əlavə stimul verən dəyişikliklərdir. Xüsusilə də vergiləri vaxtında ödəyən sahibkarlara üstünlük verilməsi yaxşı ənənənin başlanğıcıdır. Əminəm ki, bu, digər vergi ödəyiciləri arasında da intizamın artmasına öz təsirini göstərəcək».

***«Rotary Motors» MMC-nin rəhbəri Arzu Rəhimova:***
«Şəffaf vergi ödəyicisi kimi tanınmaq qürurvericidir. Vergi orqanı tərəfindən bizimlə məhdudiyyətsiz videobağlantılar qurulacaq, çağrı və xidmət mərkəzlərində növbəsiz və sürətli xidmətlər göstəriləcək, yazılı müraciətlərin cavablandırılması operativ şəkildə təmin ediləcək. Kuratorlar vergi qanunvericiliyi haqqında davamlı olaraq məlumatlandırma-izahat tədbirləri həyata keçirəcək. Vergi orqanının təşəbbüsü ilə Tədris Mərkəzi tərəfindən xüsusi təlim proqramları hazırlanacaq, ixtisas sahələri üzrə onlayn üsullarla ödənişsiz təlimlər təşkil olunacaq. Bundan əlavə, öz iş yerimizdə ünvanlı xidmətlərlə təmin ediləcəyik, nəticədə vaxt itkilərimiz olmayacaq, işimizi daha yaxşı qurmağa nail olacağıq».

***«A+Co» MMC-nin direktoru Xanoğlan Qasımov:***
«Bizə intizamlı vergi ödəyicisi kimi etimad göstərilməsi biznes imkanlarımızın genişlənməsinə səbəb olacaq. Şəffaf vergi ödəyicilərinə göstəriləcək vergi xidmətləri biznesimizi yaxşı təşkil etməyə, vergi öhdəliklərini asan və daha rahat yerinə yetirməyimizə imkan yaradacaq. Bu statusun əldə olunması həm də məsuliyyət deməkdir. Digər vergi ödəyicilərinə nümunə olmaq üçün biz bundan sonra öz səylərimizi daha da artırmalı, vergilərin vaxtında və tam həcmdə ödənilməsi üçün fəallıq nümayiş etdirməliyik. Onu da nəzərə almalıyıq ki, vergi ödəyicilərinin fəallığı könüllü əməletmə səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır».

***«El-Plastik» MMC-nin sədri Gülağa Abışov:***
«Bu, vergi sistemində ən mütərəqqi layihələrdən biri hesab olunmalıdır. Çünki «yaşıl dəhliz» prinsipi dövlət büdcəsi qarşısında öz öhdəliklərini vaxtında və nümunəvi şəkildə yerinə yetirən sahibkarlar üçün nəzərdə tutulub. Yəni məqsəd könüllü vergi əməletməsinin artırılmasını təmin etməkdir».

***«Atenau Ltd» MMC-nin rəhbəri Azər Əhmədov:***
«Vergilər Nazirliyinin göstərdiyi elektron xidmətlər sayəsində vergi ödəyicilərinin işi xeyli yüngülləşib. Sahibkarlarla vergi orqanı arasında qarşılıqlı etimad mühiti formalaşıb, tərəfdaşlıq münasibətləri qurulub. Şəffaf vergi partnyorluğu irəliyə doğru daha bir addım oldu, vergi ödəyicisinin səyyar xidmətlərlə təmin edilməsinə şərait yaratdı. Çalışacağıq ki, partnyorluq çərçivəsində ən yüksək səviyyədə əməkdaşlıq edək, şəffaf olaq, bu əlverişli şəraitdən maksimum faydalanaq».

**Elbrus CƏFƏRLİ**

## Azərbaycan Respublikasının Vergilər Nazirliyi ərazi vergi orqanlarında və rayon vergilər şöbələrində vakant vəzifələrə işə qəbul üzrə müsabiqə

## ELAN EDİR

Dövlət vergi orqanlarına xidmətə qəbul «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin, «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»nin və Vergilər Nazirliyinin 24 iyun 2014-cü il tarixli 1417040100819300 nömrəli əmri ilə təsdiq edilmiş «Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar sənədlərin toplanması, yoxlanılması, müsabiqənin keçirilməsi, ehtiyat kadrların formalaşdırılması və idarə edilməsi Qaydaları»nın tələblərinə müvafiq olaraq aparılır.

Müsabiqədə iştiraka, bir qayda olaraq, iqtisadiyyat və idarəetmə, hüquqşünaslıq ixtisas istiqamətlərinə uyğun ixtisaslar üzrə ali təhsilə malik (xarici ölkədə təhsil almış namizədlərin diplomları müvafiq qaydada nostrifikasiya olunmalıdır), yaşı 35-i keçməmiş (müvafiq ixtisas üzrə elmi dərəcəsi olan şəxslər, ali təhsili fərqlənmə diplomu ilə bitirmiş şəxslər, yüksək peşə hazırlığına və ya iş təcrübəsinə malik şəxslərə yaş həddi tətbiq edilmir) vətəndaşlar buraxılırlar.

«Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin 9-cu maddəsinə əsasən, vətəndaş aşağıdakı hallarda vergi orqanlarında xidmətə qəbul oluna bilməz:

- məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;
- üzərindən məhkumluğu götürülmədikdə və ya ödənilmədikdə.

Qanunla müəyyən edilmiş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar müsabiqədə iştiraka buraxılmırlar.

Müsabiqəyə sənəd qəbulu elektron ərizə vasitəsilə 27.02.2017-ci il saat 10:00-dan 12.03.2017-ci il saat 24:00-dək həyata keçirilir. Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az və www.e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. **Ərizə formasına sağlamlıq haqqında tibbi arayışın surəti və ali təhsil haqqında diplomun surəti mütləq qaydada elektron fayl şəklində əlavə olunmalıdır.** Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə ərizənin sistemə daxil olunduğu barədə elektron poçt ünvanı vasitəsilə məlumat verilir. Ərizə sistemə daxil olunduqdan beş gün ərzində onun müsabiqədə iştirak üçün qəbul edilib-edilməməsi müvafiq işçi qrup tərəfindən yoxlanılır, ərizə qəbul edilərsə vətəndaşa iş nömrəsi və imtahana buraxılış vərəqəsinin götürülmə tarixi, ərizə qəbul edilmədiyi halda isə səbəbi barədə elektron poçt ünvanına məlumat göndərilir.

Vətəndaşlar elektron ərizə formasını doldurmaqda çətinlik çəkdikdə və ya bu zaman hər hansı texniki problemlə rastlaşdıqda, habelə ərizə ilə müraciət etdikləri müddətdən beş gün keçdiyinə baxmayaraq onların elektron poçt ünvanına nazirlik tərəfindən heç bir məlumat göndərilmədikdə 012-403-81-35 və 012-403-88-04 nömrəli telefonla Vergilər Nazirliyinə, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

Sənədləri qəbul edilən namizədlər 12.04.2017-ci il tarixdən 14.04.2017-ci il tarixdə saat 18:00-dək imtahana buraxılış vərəqələrini Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı 15.04.2017-ci il tarixdə Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi yerdə və vaxtda keçiriləcəkdir.

Müsabiqənin test imtahanı mərhələsinin suallarını (məntiq və informatika sahələri üzrə suallar istisna olunmaqla) özündə əks etdirən ədəbiyyat siyahısı 27.02.2017-ci il tarixdə Vergilər Nazirliyinin rəsmi internet saytının (www.taxes.gov.az) «İşə qəbul. Müsabiqələr» bölməsində yerləşdiriləcəkdir.

**DİQQƏT!** Son 1 il ərzində ingilis dilini bilmə səviyyəsi TOEFL (IBT) 100 və 100-dən yuxarı və ya IELTS üzrə 7 və 7-dən yuxarı olan vətəndaşlara müsahibə mərhələsində üstünlük verilir. Vətəndaş ingilis dili səviyyəsini təsdiq edən müvafiq sənəd barədə məlumatları (sənədin adını, nömrəsini, qısa məzmununu və ingilis dili səviyyəsini) elektron ərizə formasının «Əlavə qeydlər» hissəsində göstərməlidir.

Müsabiqədə uğur qazanan vətəndaşlara ərazi vergi orqanlarında və ya rayon vergilər şöbələrində olan vakant vəzifələr üzrə iş təklif ediləcəkdir. Göstərilən təklifdən imtina edən şəxslər Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaqdır.

beynəlxalq panoram

## Avropa İttifaqı və Yaponiya azad iqtisadi zona yaradır

Avropa İttifaqının (Aİ) və Yaponiyanın təmsilçiləri azad iqtisadi zona (AİZ) yaratmaq barədə danışıqların tezliklə başa çatdırılacağını bildirmişlər. Aİ-nin ticarət üzrə komissarı Sesiliya Malmström və Yaponiyanın xarici işlər naziri Fumio Kisida danışıqlar prosesinin gedişini müzakirə etmək üçün bir araya gəlmişlər. Xanım Sesiliya Malmström demişdir: «Danışıqlar məhsuldar olmuşdur. Son aylar ərzində başlıca məqsədimizə doğru mühüm addımlar atmışıq. Qalan məsələləri isə ən yaxın vaxtlarda həll etməyi planlaşdırırıq».

Xatırladaq ki, dörd il əvvəl - 2013-cü ildə başlamış danışıqların 17-ci raundu keçən ilin oktyabrında olmuşdu. Hər iki tərəf ölkələr arasında ticarət dövriyyəsinin əhəmiyyətli şəkildə artmasına səbəb olacaq AİZ sazişinin tezliklə imzalanması əzmindədir.

## Avstraliyada mal və xidmətlərə verginin əhatə dairəsi genişləndirilir

Hökumət aşağı qiymətli ixrac mallarının mal və xidmətlərə görə verginin əhatə dairəsinə salınmasını təklif etmişdir. Bu yaxınlarda tətbiq olunmağa başlamış mal və xidmətlərə görə vergilər illik dövriyyəsi 75 min Avstraliya dollarından (57,5 min ABŞ dolları) artıq olan xarici tədarükçüləri və elektron ticarət platformalarının vergi ödəyiciləri kimi qeydiyyata alınmalarını nəzərdə tutur. Bununla da malların tədarükçüləri dövlətə sabit vergi ödəyirlər.

Avstraliyanın gömrük qanunvericiliyinə görə gömrük qiyməti 1000 Avstraliya dollarından (769 ABŞ dolları) az olan mallardan rüsum tutulmur. Bu vəziyyət xarici elektron platformalara rəqabətdənkənar üstünlük verir. Çünki onların təqdim etdikləri mallar Avstraliyaya idxal edilən analoqları ilə müqayisədə ucuz olur. Ölkənin kiçik biznes üzrə naziri Maykl MakKormakın açıqlamasına görə, hökumət kiçik və orta biznes təmsilçilərinin mənafeyini nəzərə alaraq, bu vəziyyəti nizamlamalıdır.

## Robotlardan vergi tutulsun!

«Microsoft» şirkətinin qurucusu Bill Qeytsin fikrincə, robotların əməyinə gəlir vergisi və sosial yığımlar tətbiq olunmalıdır. Dünyanın öndə gedən iş adamlarından olan Bill Qeyts belə hesab edir ki, vergi siyasətinin düzgün tənzimlənməsi ilə avtomatlaşmanın və insan əməyinin robotlarla əvəz olunmasının sürətini azaltmaq mümkündür: «İndi fabrikdə çalışan insanın il boyu aldığı 50 min dollar maaşdan gəlir vergisi, sosial vergilər tutulur və digər çıxılmalar olur. Əgər eyni işi robot görəcəksə, biz onun əməyindən də eyni səviyyədə vergi tutulması barədə düşünə bilərik». Bill Qeytsin sözlərinə görə, hökumətlər biznesin bir çox sahələrində xeyli sayda iş yerlərinin robotlarla, demək olar ki, eyni zamanda əvəz ediləcəyinə hazır olmalıdırlar. Onun fikrincə, bu prosesi tənzimləməyin ən yaxşı üsulu vergi siyasətidir.




## BVF vergi islahatını səmərəli aparmağa səsləyir

Beynəlxalq Valyuta Fondunun (BVF) illik məruzəsində qeyd edilmişdir ki, Yunanıstan öz iqtisadi problemlərini həll etmək üçün vergi sistemini əsaslı şəkildə yenidən qurmalıdır. Məruzədə əvvəlki illərdə verilmiş tövsiyələrə də yer verilmişdir. Fondun açıqlamasına görə, Yunanıstan öz vergi bazasını genişləndirməli, həmçinin vergidən yayınma hallarına qarşı mübarizəni gücləndirməli, vergi inzibatçılığını təkmilləşdirməli, eləcə də vergi borclarına daha səmərəli nəzarət etməlidir. Qeyd edilmişdir ki, Yunanıstanın vergi sistemi orta gəlirli işçilərə vergi yükünün məqbul səviyyədən xeyli aşağı qoyulduğuna və aşağı gəlirli insanlardan əhəmiyyətli dərəcədə çox vergi tutulduğuna görə, qeyri-səmərəli və ədalətsizdir. Məruzədə göstərilmişdir ki, ölkənin səmərəsiz vergi sistemi vergi daxilolmalarının kəmiyyətcə artmasına gətirib çıxarmışdır. Ölkə iqtisadiyyatının həcmi ilə müqayisə etdikdə, vergi daxilolmaları Avropada ən yüksək göstəricilərdəndir və vergi dərəcələri hələ də artmaqdadır.

BVF-nin məruzəsində vurğulanmışdır ki, ölkənin vergi orqanı öz diqqətini vergilərin «lazım olduğu qədər artımı» deyil, ardıcıl artımı üzərində cəmləşdirməlidir. Çünki «lazım olduğu qədər artımı» sonradan davam etdirmək mümkün olmayacaq.

BVF Yunanıstana vergi dərəcələrinin aşağı salınması üçün əlavə dəyər vergisi dərəcəsinin bir faiz artırılmasını tövsiyə etmişdir.

## Karbon qazı tullantılarına vergi qoyulacaq

Sinqapur hökuməti 2019-cu ildən atmosferə karbon qazı tullantılarına görə vergi qoymağı planlaşdırır. Vergi istixana qazları tullantısının əsas mənbələri olan sənaye müəssisələrindən tutulacaq. Bu vergiyə, ilk növbədə, istilik elektrik stansiyaları cəlb ediləcək, ümumilikdə isə istixana qazları tullantılarının əsas mənbəyi sayılan 30-40 müəssisə «karbon qazı» vergisi ödəməli olacaq.

Sinqapurun maliyyə nazirinin sözlərinə əsasən, atmosferə karbon qazı buraxılmasına görə verginin tətbiqi istixana qazları tullantısının azaldılması üçün «daha səmərəli yoldur». Bu vergi 2016-cı ildə ratifikasiya edilmiş iqlimlə bağlı Paris sazişində Sinqapurun öz üzərinə götürdüyü öhdəliklərə sadiq qaldığını nümayiş etdirir. Sazişə əsasən, Sinqapur 2005-ci illə müqayisədə 2030-cu ilədək atmosferə buraxılan istixana qazlarının həcmini 36% azaltmalıdır. Bundan əlavə, atmosferə istixana qazlarının atılmasına vergi tətbiq edilməsi təmiz elektrik enerjisinin inkişafına təkan vermiş olacaq.

## Xəbər lenti

**Cənubi Afrika**nın Gəlirlər Xidməti təsdiq etmişdir ki, şirkətlərin icraçı direktoru olmayan rezidentlər qeydiyyata alınmalı və öz xidmətlərinə görə əldə etdikləri istənilən vəsaitdən əlavə dəyər vergisi üçün ödəniş etməlidirlər.

**İsrail** vergi kreditlərinin ləğv olunması, eləcə də əlavə dəyər vergisi güzəştləri alanların siyahısının konkretləşdirilməsi yolu ilə vergi yığımlarını artıra bilər - bu barədə Beynəlxalq Valyuta Fondunun yeni hesabatında bildirilmişdir.

**Ukrayna**nın Dövlət Xəzinədarlığının rəhbəri bəyan etmişdir ki, bu il xəzinədarlıq vergi ödənişinin vahid hesab üzərindən aparılması sistemini tətbiq etmək niyyətindədir. Bu zaman vergi ödəyicisinin ödənişləri onun ayrı-ayrı hesabları üzrə paylanacaq.

**Avstraliya** Vergi İdarəsinin «Uber» taksi xidmətinə qarşı iddiası məhkəmədə təmin olunmuşdur. Vergi İdarəsi sürücülərdən uçota dayanmağı və xidmətlər üçün vergi ödəməyi tələb etmişdi. «Uber» bunun fəaliyyət göstərdiyi başqa ölkələr üçün presedentə çevriləcəyindən ehtiyatlanır.

**Avropa Komissiyası**nın tövsiyələrinə əsasən, İtaliya hökuməti büdcə kəsirini ÜDM-in 0,2%-i səviyyəsinə (3,4 milyard avro) salmaq üçün aprel ayının sonuna qədər əlavə vergi mənbələri tapmalıdır.

**Fransa** prezidentliyinə namizədliyini irəli sürmüş Jan-Lük Melanşon, seçiləcəyi təqdirdə, varlılardan tutulan gəlir vergisinin dərəcəsini 90%-ə qaldıracağını vəd etmişdir.

**Honkonq** və **Pakistan** ikiqat vergitutmanın aradan qaldırılması barədə saziş imzalamışlar. Saziş iki ölkə arasında vergi hüquqlarının sərhədlərini müəyyənləşdirəcək, eləcə də beynəlxalq iqtisadi əlaqələrə aid subyektlərin vergi öhdəliklərinin qiymətləndirilməsinə kömək edəcək.

**Cənubi Afrika Respublikası**nın maliyyə nazirinin büdcə kəsirinin aradan qaldırılması üçün irəli sürdüyü təkliflərdən biri ölkənin varlı sakinlərindən tutulan gəlir vergisinin dərəcəsini artırmaqdır. Təklifə görə, 150 min dollardan artıq qazancı olanlardan tutulan gəlir vergisinin dərəcəsi 41%-dən 45%-ə qaldırılacaq.

## Aİ Böyük Britaniyanın rəqabətli vergi dərəcələri müəyyənləşdirmək bəyanatından narahatdır

Avropa qrupunun prezidenti Yerun Disselbloyem Breksit prosedurundan sonra Böyük Britaniyanı vergi limanı olmaq statusu əldə etməkdən çəkinməyə çağırmışdır. Onun açıqlamasına görə, Aİ ölkələrinin vətəndaşları vergi dərəcələrinin ədalətli səviyyədə müəyyənləşdirilməsini tələb edirlər ki, buna sabit iqtisadi əməkdaşlıq yolu ilə nail oluna bilər.

Böyük Britaniyanın Aİ-dən çıxmaq barədə qərar qəbul etməsi şəraitində Yerun Disselbloyem britaniyalıları öz mövqelərini müəyyənləşdirməyə dəvət etmişdir: onlar ya Donald Trampın siyasi kursuna dəstək verməli, ya da kontinental Avropa ilə sıx əməkdaşlığı davam etdirilməsi üçün səylər göstərməlidirlər. Onun rəyinə görə, birinci variant («vergi limanı»nın yaradılması) səhvdir, çünki bu, vicdanlı ticarətin əsaslarını sarsıdır.

Xatırladaq ki, Böyük Britaniyanın Baş naziri xanım Tereza Mey öz ölkəsinin rəqabətli vergi dərəcələri, o cümlədən korporativ vergi tətbiq etmək niyyətində olduğunu bildirmişdi. Ölkə çoxlu sayda dünya şirkətlərini və böyük məbləğdə invetisiyaları özünə cəlb etmək arzusundadır.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Uydurma, xəyali məharətin və ya ağlasığmaz manipulyasiyanın köməyi ilə ətraf aləmə təsir etmək; 2.Rusiyada göl; 3.Çap üsulu; 4.Ukraynada şəhər; 5.İngilislərdə bəy, zadəgan titulu; 6.İqtisadiyyatda və ya bazarda baş verən dəyişiklikləri ölçmək üçün istifadə edilən kəmiyyət göstəricisi; 9.Boşbuynuzlular fəsiləsinin öküzlər cinsinə aid yarımnöv; 13.Azərbaycan müğənnisi, bəstəkarı. Tanınmış xanəndə və pedaqoqun adı; 15.Partlayıcı maddə; 16.Orta əsrlərdə yaşayıb-yaratmış görkəmli Azərbaycan şairi və mütəfəkkiri. Azərbaycan və türk divan ədəbiyyatının ən məşhur nümayəndələrindən biri; 17.Özünü bəyənən, özünü yüksək tutan, ancaq özünü, öz mənafeyini düşünən adam; 18.Görkəmli Azərbaycan bəstəkarının adı, «Min bir gecə» nağıllarının süjetləri əsasında yaradılmış baletin müəllifi; 20.Lerik rayonunda kənd; 21.İdarənin, müəssisənin və s. adı olan möhür. **Soldan sağa:** 1.Mammut cinsinə aid olan nəsli kəsilmiş xortumlu heyvan; 5.Yunan hərfi, psixologiya elminin simvolu; 7.XIII əsr Azərbaycan memarlığının ən maraqlı nümunələrindən biri, Culfa rayonu ərazisində yerləşən türbə; 8.1921-ci ildən nəşr edilən rusdilli mərkəzi qəzetin adı; 10.Oksidlər sinfinə aid dəyərli mineral daş. Qədim dövrlərdə ləl, yaxont adlanırdı; 11.Yuxarıya doğru getdikcə nazikləşən, yonulmuş daş sütundan ibarət abidə; 12.Çexiyanın paytaxtı; 14.S.Vurğunun poeması; 19.Göygöl rayonunda kənd; 21.Tanınmış Azərbaycan aktyoru, rejissoru, xalq artistinin adı. Bir sıra musiqili komediya və operaların müəllifi; 22.Respublikamızda rayon; 23.Tərtibçi, rəssam; 24.Masallı rayonunda kənd. Məşhur nasirin adı; 25.Müasir təyyarə, vertolyot, raket və idarəolunan mərmilərin uçuşunu avtomatik idarə edən konstruksiya.



Culfa rayonu ərazisində yerləşən türbə

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Solmaz; 2.Erq-Şeş; 3.Turan; 4.Orfizm; 5.Tiker; 6.Kakadu; 9.Aqil *(Əliyev)*; 13.Uşba; 15.Norfolk; 16.Fərhad; 17.Slavsk; 18.Şreder; 20.Dəcəl; 21.Şanlı. **Soldan sağa:** 1.Skeytboard; 5.Tək; 7.Loqarifm; 8.Ukok; 10.Arşın; 11.Ziqfrid; 12.Aşşur; 14.Öləng; 19.Ərdəbil *(xanlığı)*; 21.Şartr; 22.Hacı; 23.Oversold; 24.Dol; 25.Sıktıvkar.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# Velosipedçilərimiz yeni mövsümə start verdilər

Azərbaycan Velosiped İdmanı Federasiyası yeni yarış mövsümünə start verib. Qış hazırlıq prosesini başa vuran velosipedçilər mövsümün ilk yarışında iştirak ediblər.

Federasiyadan verilən məlumata görə, Bakı Olimpiya Stadionunun ətrafında təşkil edilən yarışda klub və cəmiyyətlərin ümumilikdə 100-ə yaxın idmançısı mübarizə aparıb. Startdan öncə yeni mövsümün açılışı ilə əlaqədar Azərbaycanın dövlət himni səsləndirilib. Üç yaş qrupu üzrə təşkil olunan yarış Handikap sistemi üzrə keçirilib.

Qızlar arasında 30 kilometr məsafəyə yarışda 8 saylı İdman Olimpiya Məktəbinin təmsilçiləri ilk üçlükdə qərarlaşıblar - Validə Cabbarova və Ayan Xankişiyeva finiş xəttini 1 saat 4 dəqiqə 35 saniyəyə keçsələr də, fotofinişə əsasən Validə 1-ci, Ayan 2-ci olub. Onlardan 2 saniyə geri qalan Elfanə Camalova isə 3-cü yeri tutub.

On yeddi yaşadək oğlanlar da 30 kilometr məsafə üzrə mübarizə aparıblar və bu kateqoriyada 1-ci yerə Olimpiya Ehtiyatları Velosiped İdman Məktəbinin üzvü Nikita Sıtov sahib olub. 8 saylı İdman Olimpiya Məktəbinin üzvləri Emil Əliyev və Əhməd Əhmədov isə qalibə 12 saniyə uduzmaqla 2-3-cü yerləri bölüşüblər.

Gənclər kateqoriyasında «Lokomotiv» klubunun nümayəndəsi Mahmud Məmmədov 60 kilometr məsafəni 1 saat 37 dəqiqə 55 saniyəyə başa vurmaqla qalib adını qazanıb. Ondan müvafiq olaraq 3 dəqiqə, 40 saniyə və 3 dəqiqə 41 saniyə geri qalan Musa Mikayılzadə (BCP/Lokomotiv) və Mikayıl Səfərli (8 saylı Olimpiya İdman Məktəbi) isə 2-ci və 3-cü olublar.



# Ən güclülər milli komandanın heyətinə cəlb olunacaq

Bakı İdman Sarayında keçirilən gənclər arasında sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan birinciliyinə yekun vurulub. Yarışda klub və cəmiyyətlərin yığma komandalarının üzvü olan 1997-1999-cu il təvəllüdlü idmançılar iştirak ediblər.



Yarışın birinci günündə sərbəst güləş üzrə 205 pəhləvan mübarizə aparıb. Gərgin idman mübarizəsi şəraitində keçən turnirdə Əli Hüseynov (50 kq), Əfqan Xaşalov (55 kq), Xabib Karaçayev (60 kq), Hacımurad Hacıyev (66 kq), Rəşad Yusifli (74 kq), Hacımurad Maqomedsaidov (84 kq), Asxab Həmzətov (96 kq) və Umar İsrailov (120 kq) hamıdan güclü olublar.

Turnirin ikinci günündə isə yunan-Roma güləşi üzrə 169 pəhləvan gücünü sınayıb. Bütün görüşləri qələbə ilə başa vuran Zülfüqar Əliyev (50 kq), Zaur Nuriyev (55 kq), Kamran Mirzəliyev (60 kq), Namaz Rüstəmov (66 kq), Ülvi Qənizadə (74 kq), Tuncay Vəzirzadə (84 kq), Nizami Şəmilov (96 kq) və Cavid Feyziyev (120 kq) qızıl medallara layiq görülüblər.

Bütün çəki dərəcələrində mükafatçılar sırasına düşə bilən idmançılar medal və diploma yanaşı, Azərbaycan Güləş Federasiyası tərəfindən pul mükafatı ilə təltif olunublar. Medalçılar, həmçinin, yığma komandanın heyətinə cəlb ediləcəklər.

# Velosipedçimiz reytinq xallarını artırır

ABŞ-ın Los Anceles şəhərində velosiped idmanının trek növü üzrə Dünya kubokunun sonuncu - 4-cü mərhələsi başa çatıb. Yarışda iştirak edən Azərbaycan yığmasının üzvü Sergey Omelçenko keyrin növündə 25 iştirakçı arasında 9-cu olub.

Bu nəticə velosipedçimizə aktivinə daha 250 reytinq xalı yazmağa imkan verib. Qeyd edək ki, Sergey Omelçenko bunadək Dünya kubokunun 1-ci mərhələsində 80, 2-ci və 3-cü mərhələlərin hər birində isə 175 xal qazanmışdı. Beləliklə, Dünya kubokunun 4 mərhələsinin yekununa əsasən, velosipedçimiz 680 xalla bütün mərhələlərdə iştirak etmiş 42 velosipedçi arasında 13-cü olub ki, bu da ona apreldə Honqkonqda keçiriləcək dünya çempionatının keyrin növündə iştirak hüququ verib.

Qeyd edək ki, Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) mövcüd reqlamentinə əsasən, dünya çempionatında iştirak etmək üçün velosipedçilər Dünya kubokunun mərhələ yarışlarında müvafiq reytinq xalları qazanmalıdırlar.

## mozaika

texnologiya

# «Ağıllı» saat uşağın yerini müəyyən edəcək




Çinin «Xiaomi» şirkəti uşaqları olan valideynləri öz yeni tərtibatı ilə sevindirib. Valideynlərə uşağının yerləşdiyi yeri müəyyən etməyə kömək edəcək «Xiaomi Child Wristwatch» «ağıllı» saatları istehsal edilib. Yeni cihaz uşaq üçün də əvəzolunmaz əşya olacaq. Onlar bunu adi cihaz kimi istifadə edə biləcəklər və bununla da valideynlər rahat olacaq.

«Xiaomi Child Wristwatch» kifayət qədər uzun müddət doldurulmağa ehtiyac olmayan 1,44 düym displeyli prosessora malikdir. Həmçinin, smart-saata fasiləsiz 4 sutka işləmək imkanı verəcək 420 mA/saatlıq akkumulyator quraşdırılıb. Saat zərbəyə davamlılığı və su keçirməmək xüsusiyyəti ilə də fərqlənir.

Smart-saatın əsas xüsusiyyəti isə izləmə qurğusunun olmasıdır. Nə qədər ki, uşaq əlindən saatı çıxarmayıb, valideynlər onun harada olduğunu müəyyən edə biləcəklər. Böyüklər interaktiv xəritədə uşaqlarının təhlükəsiz yerdə olduğunu qeyd edə bilirlər. Əgər smart-saatın sahibi qeydə alınmış zonanın çərçivəsindən çıxırsa, valideynlər bu barədə müvafiq siqnal alırlar.

# Taxta döşəmə enerji istehsal edir

ABŞ-ın Viskonsin Universitetinin alimləri üzərində yeridikdə enerji istehsal edən döşəmə örtüyü hazırlayıblar. Alimlərin fikrincə, kimyəvi emal olunmuş sellüloz lifləri elektrik enerjisini istehsal etməyə imkan verir.

Xüsusi texnologiya vasitəsilə hazırlanmış yonqar qalınlığı bir millimetrdən artıq olmamaq şərtilə funksional elementlər şəklində döşəməyə düzülür.

Tədqiqatçılar ticarət mərkəzləri və stadionlarda yonqar döşəmələrinin quraşdırılması nəticəsində şəhərin əlavə enerji mənbəyi ilə təchiz ediləcəyinə əmindirlər.

Aparılmış tədqiqatlar bu örtüyün adi döşəmələrə nisbətən daha davamlı olacağını göstərir.

sağlam həyat tərzi

# İnsultun profilaktikası üçün sadə vasitə

İnsultun qarşısını alan vasitələr arasında hamı üçün əlçatan olan vasitələr var. ABŞ alimləri müəyyən ediblər ki, toyuq yumurtası beyinə qan sızmasının qarşısını almağa səmərəli kömək edir. Miçiqan Universitetinin elmi işçiləri bir neçə tədqiqat məlumatlarının təhlil etdikdən sonra bu nəticəyə gəliblər. Alimlər müəyyən ediblər ki, hər gün cəmi bir yumurta yemək insultun qarşısını 12 faiz alır.

Tədqiqatçılar toyuq yumurtası yeməyin profilaktik effektinin yüksək olmasını bu məhsulun antioksidant maddələr kompleksi ilə zəngin olması ilə əlaqələndirirlər. Orqanizmin müəyyən səbəblərə görə daim məruz qaldığı oksidləşmə prosesinin intensivliyi bu maddələr sayəsində səngiyir. Hüceyrələrdə oksigen təzyiqinin düşməsi çox təhlükəli xəstəliklərin, o cümlədən ürəyin işemik xəstəliyinin və beyində qan dövranının pozulması ilə bağlı olan iltihabi proseslərin kəsilməsinə gətirib çıxarır.

Yumurta yeyən zaman damarlara və kapillyarlara yaxşı təsir göstərən birləşmələr və rahat həzm olunan zülallar orqanizmə daxil olur. Bu da yumurtanın faydalı xüsusiyyətlərini gücləndirir.






«Vergilər» qəzetinə 2017-ci il üçün abunə kampaniyası davam edir

ELAN

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


ekologiya

# Təbii fəlakətlərin səbəbləri

Qlobal istiləşmənin Yer atmosferində istilik axınlarının effektivliyini artırması və onun kinetik enerjiyə çevrilməsi son illərdə Atlantika bölgəsində qasırğaların, Avrasiya və Amerikada leysan yağışların sayının çoxalmasına səbəb olub.

Alimlər bildirirlər ki, son illər ekstremal hava hadisələrinin - ABŞ-ın və bir sıra Şərqi Asiya ölkələrinin sahillərində iri qasırğaların, Amerika və Avropanın kontinental rayonlarında daşqınların, Rusiya və Mərkəzi Asiyada uzun sürən quraqlıq və anormal istilərin tezliyi nəzərəçarpacaq dərəcədə artıb.

Tədqiqatçıların fikrincə, bütün bunlar qlobal istiləşmə ilə əlaqədardır, lakin qlobal istiləşmənin havaya təsiri mexanizminin özü açılmamışdı.

Hyuston Universitetinin əməkdaşı Limin Li və onun həmkarları temperaturun artmasının atmosferdə «Lorens sikli» deyilən enerji dövranına və onunla bağlı olan potensial istilik enerjisinin hava kütləsinin kinetik enerjisinə çevrilməsi prosesinə təsirini öyrənərək, fəlakətlərin sayının artmasının mümkün səbəbini tapıblar. İlk dəfə bu əlaqəni «xaos nəzəriyyəsi»nin müəllifi və «kəpənək effekti» terminini icad edən məşhur amerikalı meteoroloq Edvard Lorens kəşf edib və riyazi yolla izahını verib.

Məlumatların təhlili göstərib ki, havanın temperaturunun və onunla bağlı kəmiyyətlərin yüksəlməsi bütün hallarda eyni nəticəyə - istilik mübadiləsi effektivliyinin artmasına və enerjinin bir haldan digərinə keçməsinin sürətlənməsinə gətirib çıxarıb. Linin sözlərinə görə, indiki vəziyyətdə «faydalı iş əmsalının belə artması» mənfi haldır.

Bunun sayəsində Yer atmosferində cəmləşən mexaniki enerjinin ümumi miqdarı hər zaman eyni qalıb, lakin onun artıqları qasırğa, siklon və antisiklon, habelə hava kütlələrinin hərəkəti ilə bağlı digər zərərsiz və ya xoşagəlməz hadisələr şəklində çox sürətlə atmosferdən çıxarılıb.

Bütün bunlar təbii fəlakətlərin və ekstremal hava fenomenlərinin sayının son illər nə üçün kəskin artdığını izah edir.

**Müdriklər deyib ki...**

*«Mənim cangüdənlərim yoxdur, ancaq iki nəfər yüksək təhsil görmüş vergi məsləhətçim var».*
*Elvis Presli (1935-1977)*

